بسم الله الرحمن الرحیم

# Bismillahir-rahmanir-rahim



# İMAM XOMEYNİNİN NƏZƏRİNDƏ İNQİLABIN YAYILMASI

İmam Xomeyninin əsərlərini tənzim və nəşr edən müəssisə.
Beynəlxalq əlaqələr şöbəsi.

# Mügəddimə

Adətən xalgın amalları təhlükə altında oldugda və hakim rejim tərəfindən xalgın istəklərinin həyata keçirilmədiyi şəraitdə ingilabın vücuda gəldiyini söyləyirlər.

İngilab hakim rejimlə mübarizədən galib çıxdıgda, onun ingilab təcrübələrinin ətraf ölkələrə, hətta, bütün dünyaya yayılması kimi mühüm bir məsələ garşıya çıxır.

İrandakı islam ingilabı da bu təbii ganuna tabe olmuş və başçısı Məhəmmədrza pəhləvi olan diktator rejimini devirdikdən sonra onun dərin amallarına əsasən bu ingilabın başga ölkələrə yayılması məsələsi irəli sürülmüşdür.

Belə bir şəraitdə ingilabın idealogiyasına az çox meylli olan nəzərlər onu müxtəlif ibarətlərlə vəsfləndirməyə başladılar.

Bu nəzərləri üç grupa bölmək olar:

Birinci nəzər: bu nəzərin ardıcılları millətçilər idilər.millətçilik İran tarixində uzag keçmişə malikdir. Lakin Məşrutə[1] zamanından bəri Qərbə meyilli olan

---

[1] İranın bərbad vəziyyəti 19 - cu əsrlərin axırları və 20-əsrlərin əvvəllərində özünün son həddinə çatmişdır.dövlət məmurları tərəfindən, habelə istibdadçıların xidmətçilərinin zülm və işgənjələrinin xalgı qəzəbləndirməsi.Müzəffəruddin şahın zəiflik və ləyaqətsizliyi, camaatın gündən günə ölkə məsələlərində agahlıq və ayıqlığı, alimlər və ruhanilər qiyamı Məşrutə inqilabının yaranması üçün zəmin oldu. 1906 cı ildə bu hərəkat qələbə çaldı. Bu hərəkat düzgün yolla getməsə də İranın ictimai təşkilatının dağılması, xalq təbəqələri arasında fərq qoymanın sona yetməsi, böyük sahibkarların və saray xadimlərinin qüdrət saraylarının dağılması, qanun və ədalətin

ortaya çıxması kımı böyük dəyişiklik yaratdı. Lakin Qərbə meyilli ünsürlərin nüfuzu,ruhanilərin hakimiyyət və siyasi səhnədən uzaqlaşdırılması Məşrutə hərəkatına öz istədikləri nəticəni almağa imkan vermədi və Rzaxanın çevrilişi ilə hərbi hökumət yenidən öz yerinə oturdu.. 2 - İranda pəhləvi hökumətinin banisi olan Rzaxan 1921 cı ildə çevriliş etdi və 1925 cı ildə İngiltərə dövlətinin planlarına uyğun olaraq padşahlıq taxtında oturdu. Rzaxan, çevrilişdən qabaq qəzvin şəhəri hərbi qvardiyasının başçısı ıdı. 1941 cı ilin 11 sentyabrında İran müttəfiqləri Rusiya, Amerika və İngiltərə tərəfindən işğal olduqda Rzaxan müttəfiqlərin başçılarının məsləhəti itə istefa verdi və işləri müttəfiqlərin razı olduqları adama, yəni öz oğlu Məhəmməd Rzaya tapşırdı. Bu dəyişikliklərdən əmələ gələn ab havaazadlıqların qaytarılması üçün zəmin yaratmasına baxmayaraq daha 5 il müddətində bu iş baş tutmadı.bütün bu oyunlar İngiltərə dövləti tərəfindən qurulur və onlrın amilləri tərəfindən icra olunurdu. Rzaxanın Hind okeanındakı Madaqaşkar adasının şərqində yerləşən Moris adasına sürgün edilməsi də İngiltərənin fərmanına əsasən idi. Axırda 1944 cü ildə Rzaxan Cənubi Afrikanın Nohannesburq şəhərində öldü. 1- Doktor Mühəmməd Müsəddiq ( 1882 – 1967 ) Mirzə Hidayət oğlu. Siysətçilərdəndir. O, Parisin ( Siyasi elmlər universitetini ) bitirmiş və sonra doktorluq üzrə İsveçrənin Noşatel universitetində təhsil almışdır. O. 1920 – cı ildə Fars əyalətinə və 1922 – cı ildə isə Azərbaycana başçı təyin edilmişdir. Məclisin beş. Altı. Ondörd və onaltıncı dövrlərində Milli Şura Məclisinin üzvü seçilmişdir. doktor Müsəddiq Milli Şuranın onaltıncı dövrəsində siyasi partiyaların bir hissəsi ilə birləşərək Milli Cəbhə yaratdı. Neftin milliləşdirilməsi haqda qanun qüvvəyə mindikdən sonra şah məcbur olaraq onu baş nazir vəzifəsinə təyin etdi. Doktor Müsəddiq məzhəbi rəhbərlərin. Xüsusi ilə də mərhum Ayətullah Kaşaninin müdafiəsi və himayəsi ilə iş başıena gəldi, camaat da onu şövqlə dəstəkləyirdilər.onun icra etdiyi siyasət şahın bir çox ixtiyaratlarını əlindən aldı.şah 1951 – ci ildə ələ düşmüş fürsətdən istifadə edərək onu işdən azad etdi. Amma camaatın etirazları nəticəsində yenidən öz vəzifəsinə qaytardı. Dini siyasətdən ayrı bilən Doktor Müsəddiqlə dinlə siyasəti eyni

millətçilər ortaya çıxdılar. Əvvələr Rzaxan hökumətində xidmət edən bu millətçilər 11 sentyabr[1] dan sonra əcnəbilərin ölkəyə dəxaləti ilə müxalifətçilik edən siyasi bir fraksiyaya çevrilmiş. Müsəddiqin[1] hakimiyyəti dövründə son həddinə çatdılar. Onlara elə gəlirdi ki, Beynəlxalq amillərə baxmadan təkcə milli vəziyyəti yaxşılaşdırmali və ölkənin təhsil sistemini normalaşdırmaqla dünya ölkələrinin İrana qarşı olan həssaslıqlarının qarşısını almaq olar.

Bu nəzərin çiçəklənməsi 60 – cı illərin əvvəlləri və İmam Xomeyninin rəhbərliyi ilə İslam hərəkatının inkişafı ilə yanaşı olmuş,özlərini islami düşüncələrə malik olanlara oxşatmaqla öz canlanma və fəaliyyət ocaqlarını (Millətçilik ) adlandırdılar.

İslam inqilabının qələbəsi hər hansı bir partiya və ya təşkilat çərçivəsində olmadığından onların inkişafı üçün gözəl bir fürsət idi.

Ortayaşlı və qoca teknokratlar otuz il ərzində Məşrutənin əsas qanununa əsaslanaraq hakim Pəhləvi rejimi əleyhinə tənqidi hərəkətlərə əl ataraq meydanı öz düşüncələrini həyata keçirmək üçün genişləndirmək istəyirdilər.

Beynəlxalq qanunlara uyğun olaraq milli quruculuğa başlamaq şüarı bu düşüncəyə malik olanların ilkin fikirlərindən idi.

---

bilən Ayətullah Kaşani arasında əmələ gəlmiş ixtilaf getdikcə genişlənmək üzrə idi və 1953 – cü il avqustun 19 – da Amerikalıların çevrilişi nəticəsində onun hökuməti süquta uğradı. Doktor Müsəddiq həbs edilərək 3 il zindanda saxlandıqdan sonra Tehranla Qəzvin arasında olan Əhmədabad kəndinə sürgün edilərək ölənəcən orada qəldı.

Onlar inqilabın yayılması mövzusunun qızğınlaşdığı şəraitdə quruculuğun daha mühüm olduğunu bildirməklə öz müxalifətçiliklərini elan etdilər

Bu nəzərin tərəfdarları iddia edirdilər ki, yalnız İran milləti çərçivəsində, yəni İran millətinin məna feyini əsas tutmaqla vəzifə məsuliyyəti hissi daşimaq olar, və bütün inkişaf və tərəqqi sahələrində təkcə iran xalqının xeyrini nəzərə almaq lazımdır və iranlılıq belə bir inkışaf üçün əsas sahə sayılirdı.

Bu nəzər dünya cəmiyyətində baş verən dəyişiklikdlərə çox laqeyd və bərabər baxışla baxır və təkcə beynəlxalq razılıq və normalara uyğun və ölkə ilə əlaqəsi olan hadisələrin bir qisminə əksül – əməl göstərirdilər. Dünya quruluşuna dəyər nöqteyi – nəzərdən yanaşma bu nəzərin tərəfdarları tərəfindən xoşagəlməz bir iş kimi sayılırdı.

Şüarlar əsasən azad, abad və müstəqil İran qurmaq, bütün dünya dövlətləri ilə qarşılıqlı və daimi əlaqələr yaratmaq və mövcud dünya cəmiyyətinin sıralarına qoşulaq kimi mövzularla kifayətlənirdi.

Bu qrup bu əqidədə idi ki, İnqilabi dəyərlər yalnız İran sərhədləri çərçivəsində qəbul oluna bilər və heç bir yerə nisbətdə xas mövqe tutmaq olmaz.

Elə buna görə də inqilabın yayılması ilə müxalifətçilik edir və bu işi beynəlxalq normalara qarşı olan bir iş kimi təsəvvür edirdilər.

İkinci nəzər : Zahirdə inğilabçı ünsür kimi tanınan başqa bir dəstə milli sərhədlərin istismarçılar tərəfindən qurduğunu deyərək bu əqidədə idilər ki, İslam dünyası nə vaxtsa vahid və bütöv olubdur.

Lakin Qərbin iki mədəni qütbünün hücumu, yəni millətçilik istismar nəticəsində parçalanmiş. Onun sərhədləri və bayraqları Hegemon dövlətlərin mənafeyinə uyğun tərzdə qurulmuş, soy və milli iftixarlar gücləndirilmiş, İslam mədəniyyətinin dəyərləri kölgə altında qalmışdır.

Bu düşüncənin tərəfdarları sui – qəsd (xəyanət ) nəzəriyyəsi nə inanır və hər növ geridə qalmanı. Mədəni məğlubiyyəti və sərhəd məsələlərini istismarçı dövlətlərin qabaqcadcn xaincəsinə planlaşdırılmış proqramlarından irəli gəldiyinə inanırdılar.

İslam sərhəd tanımır şüarı bu qrup üçün münasib bir bəhanə idi ki. Bu çərçivədə öz işlərinə qanuni şəkildə tədarük görsünlər. Hazırki sərhədlərin içində qalmaq və daxili inkişafı davam etdirmək üçün olan hərəkatı sui – qəsd və mülayim üsul bilirdilər.

Onların nəzərinə əsasən, belə bir halda dünya cəmiyyətinin inqilabi dəyərlərə qarşı mədəni hücumları nəticəsində bunlar məhv olaraq inqilabi həqiqətə çevrilmiş nümunəsi məğlubiyyətə uğraya bilər .

Belə bir vəziyyətdə qərar tutmuş dəyərlərə qarşı arası kəsilməz hücumlar və ətraf rejimlərin məhv edilməsi üçn təlaş və səylər bu nəzər tərəfdarlarının əsas hədəfi idi. Hərbi casusi qudrətlərdən istifadə etmək. Azadlıq istəyən qoşunları silahlandırmaq və istibdad hökumətlərinin sutunlarını təhlükəyə salmaq bu dəstənin diqqət mərkəzində idi.

Milli inkişaf yalnız müsəlman millətlər arasında inqilabi bağlılıq əmələ gətirmək və istismarçı dövlətlərin mənafeyini təhlükə altına salmaqla mümkün ola bilərdi.

Buna görə də bu nəzər sürətlə birinci nəzərin müqabilində özünü dirçəltməyə başladı. Bu nəzərdə milli mənafelər ilə amallar eyni səviyyədə nəzərdə tutulub, xarici siyasət səhnəsində, əsasən idealoji mənafeyə, özü də qəddar və qəzəbli bir mövqedə yer verilirdi.

Hər hansı bir beynəlxalq qanunlar qəbulu rədd edilir və bütün beynəlxalq təşkilat, müəssisə və qaydalar ümumi şəkildə inkar olunur, bu zalimanə sistemə qarşı tam məhv edilənədək və zor gücünə, inqilabi dəyərlər həyata keçənədək mübarizənin həyata keçməsi, və s.... bu dəstənin diqqət mərkəzində idi.

Üçüncü nəzər : bu nəzərin tərəfdarları əqidələri belə idi ki, biz çalışaraq daxildə nümunəvi bir ümmət qurmalı, inqilabın bütün vəsilələrindən, qanundan hətta hərbi üsullardan istifadə etməklə öz hədəfimizin həqiqətə çevrilməsi üçün çalişmaliyiq.

Beynəlxalq məsələlərlə əlaqədar fürsəttələblik ilə yanaşı yumşaq siyasət məqsədini güdən bu nəzərin tərəfdarlarının əqidəsinə görə məsləhət və milli mənafelər icazə verdiyi şəraitdə zalım ölkələrinə zərbə vuraq, şərait münasib olmazsa, movcud vəziyyətlə barışıqlığı davam etdirək.

Bu nəzər tərəfdarları birinci və ikinci nəzərin uyğunlaşdırılmasini davam etdirirdi.

Onun tərəfdarları inanırdılar ki, əgər daxildəki vəziyyətin yaxşılaşdırılmasında müvəffəq ola

bilməsək , dünya cəmiyyəti ilə sərt mövqe tuta bilmərik. Daxili vəziyyəti yaxşılaşdırdıqda və öz istəklərimizə nail olduqdan sonra, tədriclə beynəlxalq aləm və ətraf mühitlə mübarizəyə başlamalıyıq.

Əgər bizim mənafeyimiz xətərlə qarşılaşsa və sərt mövqe bizə xeyir verməzsə, beynəlxalq sülhə əl atmaq və qüdrətli dövlətlərlə barışmaq lazımdır.

Bu nəzər müəyyən bir həddə daxildə inqilabi düşüncələrdən təsirlənir və beynəlxalq aləmdə başqa dövlətlərlə barışıq siyasətini müdafiə edirdi.

Bu nəzərə əsasən inqilabın hədəflərinə çatmaq üçün hər bir vasitəyə əl atmaq ( qanuni və s...) qəbul olunası idi, həqiqətdə bu dəyərlərin canli simvolu olan İmam Xomeyni (s) bu zəminədə dəqiq bir mövqe irəli sürərək öz düşüncələrində nisbi surətdə hər üç nəzəri rədd etmişdir.

Millətçilik ideyası qeyri-dini əsasları inqilabın islami dəyərlərinə daxil etdiyindən nisbətən aşkarcasına İmam Xomeyni (s) narazılığına səbəb oldu.

Çünki İranlı olmaq İslamçılıqla bərabər deyil. Əksinə ondan çox aşağıdır.

Başqa bir tərəfdən millətçilik ideyası tam surətdə bərabər olduğundan, inqilabın şərtləri ilə heç bir bağlılığı yoxdur, hər bir dəyişiklik və inkişafı yalnız milli sərhədlər çərçivəsində nəzərdə almaq və onun həyata keçməsi yolundakı hərəkət bir növ beynəlxalq aləmə etinasızlıq sayılırdı. İnqilabın yayılmasının qəti olmasına dair İmamın (s) aşkar elanı açıq şəkildə bu nəzərin rədd olunması demək idi.

İkinci dəstə də dünya cəmiyyətini aşkar etmək üçün hər cür vasitədən istifadə etməyin mümkün olduğuna inamlı olduqlarından İmam Xomeyni (s) tərəfindən rədd edilmişdir.

Çünki belə bir düşüncə istismar dövründə dəbdə olan adətlərdən fərqlənmirdi.

Qonşu dövlətlərə qarşı hərbi hücum və müsəlman ölkələrinin, eləcə də üçüncü dünya ölkələrinin hakim rejimlərini yıxmaq, istismarçıların üsullarından istsfadə etmək deməkdir.

Dünya ölkələri arasında zəncirvari inqilab yaratmaq, onları hər cür silahlarla silahlandırmaq, inqilabçı qurumlara diqqət yetirməyən bütün rejimləri inkar etmək, partlayış və terror kimi şeylərə onları təşviq etmək kimi nəzərlər İmam Xomeyni (s) tərəfindən qeyri – mümkün və yalnış bir yol hesab olunurdu.

Hazırki bütün millətlərin qəbul edib qoruduqları və beynəlxalq aləmin həqiqətlərindən olan sərhədləri dağıtmaq , qorxulu və məhv edici bir hərəkət sayılır və İmam Xomeyni (s) – biz heç kəsin torpağına tamah gözünü dikməmişik, - deməklə bu nəzərin qarşısını alır.

Üçüncü ` nəzər də bir növ fürsəttələblik olduğundan və öz hədəflərinə çatmaqdan ötrü münasib şəraitdə istər qanuni, istərsə də qeyri – qanuni yoldan faydalanmaq istəyib, müəyyən çərçivədə inqilabın yayılmasını də qəbul etdiyindən İmam Xomeyni (s ) tərəfindən inkar edilir . Bu nəzərin söykənəcəyi əsasən milli qoruculuq və beynəlxalq aləmlə sərt davranmaq olduğu üçün, bu da bir növ bitərəf mövqe sayılırdı.

İmam Xomeyni (s ) bu düşüncələri rədd edərək, həmçinin onların hər bir nöqsanlarını yeri gəldikcə çıxışlarında və yazılarında qeyd etməklə 20-cı əsrin inqilabları içində misli görünməmiş müvəffəqiyyətlərə nail oldu.

20 – cı əsrin inqilablarının öz hədəf və çərçivəsində bu üç nəzərdən birinə çevrildiklərinə baxmayaraq , İslam inqilabı başqa inqilablarda fərqlənirdi.

Çünki İmam rəhmətlik yuxarıdakı düşüncələri rədd etməklə yeni yol və amalın əsasını qoydu ki, bu da onların hamısından üstündür.

İmam Xomeyninin (s) təfəkküründə İslamın böyük dəyərlərinə vəfadarlıq və onlara əməl etmək başda durur və İslam bütün bəşəriyyətə məxsus bir dindir.

Deməli İslam dəyərlərinə inam beynəlxalq aləmə nisbətdə bir növ məsuliyyət hissi yaradır.

Şərq və Qərb hökumətlərinin nümunəsi sayılan maddi dəyər və mədəniyyətlərin inkarı, həmçinin əyriliklər, sui – qəsdlər əleyhinə mübarizə, belə mədəniyyətlərin qorxulu aqibətlərini xalqlara çatdırmaq, beynəlxalq aləmə nisbətdə bir növ məsuliyyət deməkdir.

Buna görə də bu nəzərdə sərhədləri bağlamaq, başqa xalqları nəzərdə almadan yalnız milli inkişaf və tərəqqi ilə məşğul olmaq inkar edilir.

Bu təfəkkürün əsas mahiyyətə zülm etmək və zülm altına girməyib, hökmranlıq etməyi və bitərəf mövqeni inkar etməyı inkar etməkdən ibarətdir.

İmam Xomeyninin (s) təfəkkürünə əsasən yalnız o vaxt başqa millətlərə münasib bir olmaq

olar ki, onlar lazımlı məsələlər önündə inqilabi vəzifə məsuliyyəti hiss etsinlər.

Buna əsasən mülahizə olunduğu kimi, İslam inqilabının dinləyiciləri millətlərdir, və əsas hədəf də onları başa salmaqdır.

Bu çərçivədə inqilabın yayılması məfhumu xalqların öz müqəddəratını, yaxşı mənada dəyişdirmək üçün aydın bir yol göstərmiş, millətlərin əvəzinə göstərilmiş qərar çıxarmağa səbəb olan hərbi meylli hərəkətlər ümumi şəkildə pislənmişdir. Bu yolda hökumətlə diplomatik əlaqələr də mövcuddur, çünki onları da inqilabi mədəniyyətə dəvət etmək mümkündür.

Bu təfəkkürdə inqilabın yayılması vacib bir vəzifədir,lakin bu yol o vaxt qalib gələcəkdir ki, daxildə də müvəffəqiyyətli bir nümunə hazırlansın və nümunəvi bir xalq kimi tanınsın.

Buna görə də İmam Xomeyninin (s)təfəkküründə inqilabın yayılması daxildə bu dəyərlərin həqiqətə çevrilməsi yolunda ciddiyyətin və xaricdə inqilabın amal və dəyərlərinin yayılmasının başlıca olduğunu təkid edir.

Yaxşı olardı ki, İmam Xomeyninin (s) öz fikirlərinə müraciət edərək onun peyğamlarını öz cümlələri içərisində axtarıb tapaq.

Əlinizdəki bu kitabda müxtəlif vaxtlarda İmam Xomeyninin (s) söylədiyi və ya yazdığı mövzular araşdırılmış və inqilabın yayılması məsələsi ilə əlaqələr olan ibarətlər götürülərək burada toplanmışdır.

Bir çox yerlərdə tapşırıqlar əslində başqa bir mövzu üçün olduğundan İmam Xomeyni inqilabın

yalnız yayılmasına işarə etmişdir.Seçilmiş parçaların hamısı hərtərəfli əlaqədən faydylanmışdır. Bununla belə İmam Xomeyni İslam inqilabının qələbəsindən öncə hərəkatın tərəqqisi dövründən ömrünün sonlarınadək, inqilabın yayılması məsələsinə xüsusi lütflə yanaşmışdır.

Movzuların yerləşdirmələrinə baxmaqla görmək olur ki, İmam Xomeyni (s) inqilabın yayılması məsələsini ilk dərəcədə İslam inqilabının inkar olunmaz yaxud zatı xisləti adıyla tanıtdırır.

İnqilabın İslam inqilabı olması və dünyanın hər bir guşəsində milyonlarla müsəlmanın İslamın izzət və böyüklüyünü özlərinin istəkli itkiləri kimi axtarmaları İslam inqilabının qurtuluş və izzət yaradan müraciəti dəvətçilərin qərar qəbul etmələri və müxaliflərin nəşrinə icazə vermələrinə bağlı deyil.

Bundan əlavə ictimai və insani işlərin tam bağlılığı İslam inqilabının hadisələrinin müraciət və xəbərlərinin yayılmasına, özüdə texnikanin inkişaf etdiyi bu əsrdə, habelə başqa cəmiyyətlərə təsir etməsinə mane olur. Xüsusi ilə də bu inqilab insanları müştərək dərdlərinə qarşı fəryad çəkərsə, bu təsir danılmazdır.

Amma İmam Xomeyni (s) bu həddə inqilabın yayılması ilə kifayətlənmədi. Onun fikrinə görə inqilabın yayılması və İslam hakimiyyətinin və onun tərbiyə edici hökmlərinin ölkə daxilində icrası üçün bütün müsəlmanlar məsuliyyət daşıyırlar başqa ölkələrdə də İslam hakimiyyəti dünya müsəlmanlarınin və məzlumlarının fəryadlarına da cavab verməlidir, həmçinin

inqilabın yayılmasını düşmənlər əleyhinə, ( taktiki hücum adıyla ) onların xətərlərini qovmaq üçün zəruri bilir, bu zəmanədə həm özünü , həm də başqalarını əzmlə çalışmağa çağırır.

Sonrakı fəsillərdə isə elə yerlərə işarə olunub ki, İmam Xomeyni (s) İslam inqilabını zülm və işgəncə altında olan millətlər üçün yaxşı və dəyərli nümunə bilir. Və bu əqidədə idilər ki, İslam inqilabı məhrum camaatın və məzlum müsəlmanların amallarını tanıtdırması cəhətində qəbul edəcəkdir.

Dördüncü fəsildə inqilabın yayılmasının mənasını açıqlamaqla, düşmənlər tərəfindən yayılmış şayiələr və şübhələri rədd edən ibarətlər toplanmış və açıqlanır ki, inqilabın yayılmasında əsas başqa müsəlman ölkələrinin üzərinə qoşun çəkmək lazım deyil.

Beşinci fəsildə inqilabın yayılmasının amillərinə,habelə şərtlər və üsullarına işarə edilir ki, özü inqilabın yayılması məfhumuna işarə etməyi öhdəsinə alır.

Altıncı və yeddinci fəsillərdə inqilabın yayılması düşüncələri müqabilində dostların və düşmənlərin mövqeləri tanıtdırılır.

Səkkizinci fəsildə aşkarcasına qeyd edilir ki, inqilabın yayılması heç də xam xəyal deyildir ki ona nail olmaq mümkün olmasın. Hegemon qüdrətlərin bütün gücləri ilə çalışmalarına baxmayaraq, İslam inqilabının yayılmasına və məzlum müsəlmanlar tərəfindən qəbul edilməsinə dair çoxlu şahidlər vardır.

Burada bölünmüş mövzular bu kitabı hazırlayanlar tərəfindən irəli sürülmüşdür.

İmam Xomeyni özu bu lazımli mövzuları qurarkən bu cur şeylərə qəsd etməmişdir. İbarət və bəndələrin bəziləri bu çərçivədə dəyişdirilir və bir sıra yerlərdə bundan daha üstün məzmunla bir hissə vardır ki, təkrardan çəkinmək məqsədi ilə o biri fəsillərdə gəlmiş və başqa fəsillərdə ona müraciət edilmişdir.

Hər fəslin içindəki İmam Xomeyninin sözləri ya yazıları, zamana nisbət sadalanmışdır.

Bəndələrin başlıqları İmam Xomeyninin özünün deyil, əksinə kitabı toplayanlar ibarətin mənasını və müraciətə nəzər yetirməklə , bəzən də mətindəki sözlərdən bir parça seçməklə bu işi görmüşlər.

Ümüd edirik ki, bu toplu dünyanın hər yerində həqiqi islamı istəyən və onun aşiqi olan şəxslər üçün aydın yol olsun ki, düşmənlərin təbliğatı olan mətbuat və informasiya vasitələrinin yalanlarına qulaq asmayaraq İslam inqilabının sözünü onun bünövrəsini qoymuş dahi rəhbərin öz dilindən eşitsinlər.

İmam Xomeyninin (s) əsərlərini tənzim və nəşr

edən müəssisə.

## BİSMİLLAHİR RƏHMANİR RƏHİM

## BİRİNCİ FƏSİL

### İNQİLABIN BAŞQA ÖLKƏLƏRƏ YAYILMASI İSLAM İNQİLABININ DANILMAZ XÜSUSİYYƏTİDİR.

### BÜTÜN MÜSƏLMANLAR İRANDA BAŞ VERMİŞ MÜQƏDDƏS HƏRƏKATIN TƏSİRİ ALTINA DÜŞƏCƏKDİR.

Sual : İranda baş verən hadisələr Türkiyəyə də sirayət edəcəkmi ?

İmam Xomeyni : İranda baş verən hərəkat , İslami bir hərəkatdır və elə buna görə də aydındır ki, bütün dünya müsəlmanlarına təsir edəcəkdir.
Səhifeyı - nur , 4 – cü cild , 114 – cü səhifə, 31/12/1978 .

### İSLAM HƏRƏKATI YALNIZ BİR ÖLKƏYƏ AİD DEYİLDİR .

Bizim hərəkatımız İslam naminə olmuşdur. Respublikamız İslam respublikasıdır. İslam üçün olan bir hərəkat nəinki bir ölkəyə deyil, hətta yalnız İslami ölkələrə belə aid ola bilməz , islam üçün olan bir hərəkat peyğəmbərlərin hərəkatının ardıdır , onların hərəkatı müəyyən bir yerə aid olmamışdır.

İslam Peyğəmbəri Ərəbistan əhalisindən idi[1], lakin onun dəvəti yalnız Ərəbistan üçün deyil, əksinə bütün dünyaya məxsusdur.
Səhifeyi – nur, 10 – cu cild, 115 - ci səhifə, 2/11/75

## ÖZ ƏQİDƏ MƏKTƏBİMİZİ GENİŞLƏNDİRƏCƏYİK.

Biz hegemon qüdrətlərin təzyiqi altında olan bir millət idik, indi isə onların təziqindən qurtulmuş, günbəgün irəli gedirik, bu millətin yüksəlişi deməkdir. Yüksəliş bu demək deyildir ki, qarnimiz tox olsun, yüksəliş bu deməkdir ki, öz məsləkimizi və əqidə məktəbimizi inkişaf etdirək. Allaha şükürlər olsun ki, məktəbimizi irəli aparırıq və çalışacağıq ki, onu nəinki bütün İslam dövlətlərinə, hətta müstəzəflər[2] mövcud olan bütün ölkələrə sarı genişləndirək.

Biz yüksəlişə döğru gedirik və bütün bəşəriyyəti yüksəltmək istəyirik. Səhifeyi – nur, 10 – cu cild, 233 – cü səhifə. 26/11/1979.

---

[1] İslamın əziz Peyğəmbərinin (s) təvəllüd yeri Məkkə, vəfat etdiyi yer Mədinə şəhəridir. Hər iki şəhər Ərəbistanın mühüm şəhərlərindəndir və hər il milyonlarla ziyarətçi oraya gedirlər.

[2] Zalım rejimlər tərəfindən əzilmiş və zəiflədilmiş şəxslər.

## MƏZLUM XALQ KÜTLƏLƏRİNDƏ BAŞ VERƏN BÖYÜK DƏYİŞİKLİK.

İran milləti əziz bacı və qardaşlar bilirlər ki, İranda baş vermiş bu misilsiz və böyük inqilab yüksək dəyərlərə malikdir və bu da onun İslami olmağından müəyyən bir məslək daşımasından irəli gəlir. O dəyərlər ki, böyük peyğəmbərlər bunun üçün qiyam etmişdir.

Ümid edirik ki, bu inqilab ilahi bir qığılcım olaraq məzlum xalq kütlələrində böyük dəyişikliyə səbəb olacaq və həzrət Sahibəz - zamanın[1] (ruhumuz ona fəda olsun ) zühurunadək davam edəcəkdir.

Səhifeyi – nur, 15 – ci cild, 75 – ci səhifə, 1/8/1981 .

## İRANIN BAŞQA MİLLƏTLƏRƏ ÖRNƏK OLMASI DÜŞMƏNLƏRİN MÜXALİFƏTÇİLİYİNİN ƏSAS SƏBƏBLƏRİ .

Onlar bir tərəfdən İslamı istəmirlər və o biri tərəfdən də görürlərki , İran İslamı bütün dünyaya tanıtdırmaq niyyətindədir .

---

[1] Məqsəd dünya müsəlmanlarının onikinci imamı Həzrət məhdidir (ə). Bu Allahın Quranda verdiyi vədələrdəndir. Onun edəcəyi İlahi inqilab nəticəsində bəşəriyyət zülmdən nicat tapacaqdır.

Tanıtdırılsa bütün dünya onu qəbul edəcək və mənafeləri əldən çıxacaqdır , bax elə buna görədir ki, İranla müxalifətçilik edirlər, nəinki İranda bir cəmiyyət vardır ki, qiyam etmişlər.
Səhifeyi – nur, 18 – ci cild , 248 – ci səhifə, 4/2/1984 .

## İSTİQLAL VƏ AZADLIQ İŞIĞI BÜTÜN DÜNYANI BÜRÜYƏCƏKDİR.

Allaha şükür ki, bizim millətimiz ona iman və qüdrət vermiş haqq – təalanın və onun övliyalarının inayət və mərhəməti sayəsində düşmənə sinə gərərək durdu, – biz azadlıq istəyirik , biz istiqlal istəyirik dedilər.
Əgər bu cür davam etsə, arxayın olun ki, (istiqlal və azadlıq) işığı bütün dünyanı bürüyəcəkdir.
Səhifeyi – nur.20 – ci cild, 178 - səhifə. 10/2/1988 .

# İKİNCİ FƏSİL

## İNQİLABIN YAYILMASI CƏHƏTİNDƏ DÜŞÜNCƏ VƏ SƏBƏB

### İRAN MİLLƏTİ İSLAM BAYRAĞINI HƏR BİR YERDƏ DALĞALANDIRACAQDIR.

İmam Hüseyn əleyhis – səlamın həqiqi ardıcılı olan əziz millətimiz, öz qanıyla Şeytan ( pəhləvi ) sülaləsini tarix qəbristanlığında dəfn edəcək və İslamın bayrağını nəinki bütün ölkə boyu, hətta başqa ölkələrdə də dalğalandıracaqdır.
Səhifeyi – nur.4 – cü cild. 9 – cu səhifə. 2/11/1978 .

### MƏQSƏD, İSLAMIN DÜNYA XARAKTERİ DAŞIYAN HÖKMLƏRİNİN DİRÇƏLDİLMƏSİDİR.

Məqsəd, İslamın bütün dünya xarakteri daşıyan hökmlərini diriltmək və həyata keçirtməkdən ibarətdir ki, bütün insanlar asudə, azad və müstəqil olsunlar.
Səhifeyi – nur, 6 –cı cild, 22 – ci səhifə, 16/4/1979.

### İSLAM HAMININ HAQQIDIR.

Ümidvarəm ki, İslam bayrağını dünyanın hər bir yerində dalğalandıraq, çünki İslam hamının haqqıdır, hamı da ona tabe olmalıdır.
Səhifeyi - nur, 8 – ci cild, 267 – ci səhifə 23/8/1975.

## İSLAM BAYRAĞININ DÜNYANIN HƏR YERİNDƏ DALĞALANACAĞINA ÜMİD EDİRİK.

Biz, məzmunu dadlı meyvəyə bənzəyən və onun dadını əbədi səadətə yetişdirən əziz İslamı bütün xalqlarda, bütün müsəlman ölkələrində, hətta başqa ölkələrdə də yaymaq istəyirik.

Bü bizim arzumuzdur və inşəallah İslam bayrağının dünyanın bütün nöqtələrində dalğalanacağına ümid edirik.

Səhifeyi – nur, 8 – ci cild,, 276 –cı səhifə, 25/8/1979.

## ƏDALƏTİ İCRA EDƏCƏYİMİZƏ ÜMİDVARIQ.

Ümid edirik ki, silah və zor gücünə deyil, ədalətlə davranılan bir İslam dövləti yaranacaq və bütün bəşəriyyət birgə olacaqdır.

Bizə verilən vədə budur ki, İmam Zaman (əleyhissəlam ) zühur etdikdə bu ixtilaflar aradan gedəcək və hamı bir – birinə qardaş olacaqdır. Biz azacıq da olsa, bunu icra edəcəyimizə ümidvarıq və inanırıq ki, bütün millətlər bizimlədir. İnşəallah bütün dövlətlər bizimlə birgə olmalıdırlar, onların məsləhəti bundadır ki, bizimlə birgə olsunlar.

Səhifeyi – nur, 11 – ci cild, 31 – ci səhifə, 17/12/1979.

## QARDAŞLIQ VƏ MƏHƏBBƏT İSLAM DÖVLƏTİNİN ÖZÜLÜDÜR.

İslam dövlətinin özülü məhəbbət, qardaşlıq və bərabərlik əsasında qurulmuşdur, yəni bir şəxsə digərindən və bir təbəqəyə başqasından fərq qoyuldmayaraq heç bir qanunsuz hökmranlığa yol verilmir.
Səhifeyi – nur,11 – ci cild, 65 – ci səhifə,20/12/1979.

## DÜNYANIN HƏR YERİNDƏ İSLAM BAYRAĞI.

Bu gün İslam və Quran siziin əlinizdədir, quranı yaya və dünyanın hər yerində İslam bayrağını yüksəldə bilərsiniz.
Səhifeyi – nur, 11 - ci cild, 65 – ci səhifə,10/12/1979.

## TOHİD BAYRYĞINI BAŞQA ÖLKƏLƏRDƏ DƏ YÜKSƏLDƏK.

İnşəallah, İslam respublikasının islami hökmlərlə, İranda olduğu kimi başqa yerdə də qurarsınız və tovhid bayryğını həm öz ölkənizdə, həm də başqa ölkələrdə ucaldarsınız.
Səhifeyi – nur. 11 – ci cild, 223 – cü səhifə, 8/1/1979.

## BİZ İNQİLABIMIZI DÜNYANIN HƏR YERİNDƏ YAYACAĞIQ.

İnqilabımız islami olduğuna görə, biz onu bütün dünyaya yetirəcəyik və « LA İLAHƏ İLLƏLLAH VƏ MÜHƏMMƏDƏN RƏSULULLAH » kəlməsinin sədası bütün dünyanı tutana qədər mübarizə davam edəcəkdir. Nə qədər ki, dünyanın hər yerində zalım rejimlər əleyhinə mübarizə var, biz də varıq.
Səhifeyi – nur. 11 – ci cild, 266 – cı səhifə, 11/2/1979

## DÜNYA QÜDRƏTLƏRİ İLƏ MÜNASİBƏTLƏRİMİZƏ QƏTİ SURƏTDƏ SON QOYMALIYIQ.

İnqilabımızı bütün dünyaya yaymaq üçün çalışmalıyıq , çünki İslam müsəlman dövlətləri arasında fərq qoymur və bütün dünya məzlumlarının müdafiəçisidir. Başqa bir tərəfdən bütün hegemon qüdrətlər bizi məhv etmək istəyirlər və əgər biz bu cür qalsaq onlar bizi məğlub edə bilərlər. Biz hegemon qüdrətlərlə öz hesabımızı çəkməliyik, habelə onlara bu qədər çətinliklərdə olmağımızla yanaşı yenə də dünya ilə əqidə baxımından yanaşacağımızı göstərməliyik. Onlara aydın şəkildə göstərməliyik ki, bizim mübarizəmiz məktəb, məzhəb və əqidə əsasındadır.
Səhifeyi – nur. 12 – ci cild, 19 – cu səhifə,21/3/1980.

## DÜNYANIN HƏR YERİNDƏ İSLAMI HƏYATA KEÇİRMƏLİYİK.

Biz iqtisadi və hərbi blokadalardan, habelə hegemon qüdrətlərin ölkəmizə qarşı hərbi dəxalətlərindən qorxmuruq, onlar ölkəmizə daxil olsalar da biz o qüdrətlərin qarşısında dayanacağıq və başqa müsəlman xalqlar da onların müqabilində duracaqlar.

Biz qüdrətlə irəli getməliyik ki, İslam hökmləri ölkəmizdə, hətta məntəqədə və dünyanın hər bir yerində həyata keçsin.
Səhifeyi – nur, 12 – ci cild. 92 – ci səhifə, 17/5/1980.

## İSLAMIN QÜDRƏTİNİ BÜTÜN HEGEMON DÖVLƏTLƏRƏ GÖSTƏRMƏLİYİK

Biz inşəallah İslamı irəli aparmalı, dünyanın hər bir yerində onu yaymalı və qüdrətini bütün hegemon dövlətlərə göstərməliyik.
Səhifeyi – nur, 12 –ci cild, 101 – ci səhifə, 19/5/1980

## HƏR YERDƏ İSLAMI HƏYATA KEÇİRƏK.

İslam yolunda olun, İslama xidmət edin ki, əgər - Allah eləməsin - məğlub olub şəhadçatsəq, islamdan ötrü olsun, başı uca olaq, dünyanın hər yerində , bütün ölkələrdə İslamı



Amerika qoşunlarını Səudiyyə Ərəbistanında yerləşdirmək üçün Fars körfəzinə üz tutmuş Amerika hərbi qüvvələrinin bir hissəsi.

həyata keçirək və onun bayrağını hər yerdə yüksəldək.
Səhifeyi – nur, 12 – ci cild, 99 – cu səhifə,19/5/1980.

## DÜNYANIN HƏR BİR NÖQTƏSİNDƏ İSLAM BAYRAĞINI DALĞALANDIRMALIYIQ.

Biz yolun yarısındayıq və hələ çox uzun bir yol qət etməliyik, uzun yol isə İslam bayrağını yer kürəsinin hər bir yerində yüksəltməkdən ibarətdir. Mən , müvəffəq olacağımıza və Allah – təalaya təvəkkül etməklə bu uzun yolu tez bir zamanda asanlıqla qət edəcəyimizə ümidvaram.
Səhifeyi – nur, 12 – ci cild, 101 – ci səhifə,19/5/1980.

## DÜNYADA ƏDALƏTİ YAYACAĞIMIZA ÜMİDVARIQ.

Mən ümid edirəm ki, İslamın və İslam övliyalarının bərəkəti sayəsində insanlar arasında yayılmış ədaləti, 2500 illik zalım rejimin

zülmündən və son 50 ildəki xəyanət,[1] zülm və talandan sonra, Allahın köməyi ilə əvvəlcə İranda, bunun ardınca isə dünyanın başqa ölkələrində həyata keçirək.
Səhifeyi - nur, 12 – ci cild, 130- cu səhifə,31/5/1980.

## HƏRƏKATIN BAŞQA ÖLKƏLƏRƏ YAYILMASI.

Bu hərəkatın başqa islami ölkələrə də yayılacağına ümid edirik və bu ( əqidə məktəbi ) yalnız müsəlmanlara deyil, bütün müstəzəflərə məxsusdur.
Səhifeyi- nur, 12- ci cild, 155-ci səhifə,4/6/1980.

## DÜNYA MƏZLUMLARI BİLMƏLİDİRLƏR Kİ , HAQQ GERİ ALINMALIDIR.

Bizim istəyimiz budur ki, İranda baş verən hadisələr və mübarizə metodları bütün müsəlman ölkələrində də olsun, bu inqilab bütün islami ölkələrə yayılsın. Bütün məzlum xalqlar müstəmləkəçi qüvvələrin müqabilində dayansın və

---

[1] Məqsəd İrandakı 2500 illik şahənşahlıq rejimidir ki. onun 50 ili pəhləvilərə məxsusdur.

öz haqlarını geri alsınlar. Onlar bunu bilməlidirlər ki, haqq geri alınmalıdır, haqqı onlara heç kim hədiyyə etməyəcəkdir.
Səhifeyi- nur, 12- ci cild, 284- cü səhifə, 11/8/1980.

## İSLAM GENİŞLƏNƏCƏKDİR.

İnşəallah, millətin qüvvətli əli və Allah – təalanın köməyi ilə fəsad və əxlaqsızlığın kökləri kəsiləcək və İslam hər yerdə genişlənəcəkdir. Güvəndiyimiz Allahdır.
Səhifeyi- nur, 13- cü cild, 96- cı səhifə,5/11/1980.

## İSLAMI BAŞQA ÖLKƏLƏRƏ DƏ YAYAQ.

Biz hamımız birlikdə ona görə qiyam etdik ki, İslamı burada(İranda)və hətta inşəallah, başqa yerlərdə də yayaq.
Səhifeyi-nur,13-cü cild, 161-ci səhifə,5/11/1980.

## BÜTÜN DÜNYA XALQLARINI MÜSTƏQİL EDƏK.

Ölkəmizin tamamilə müstəqil olmasını istəyiriksə, Allahın razılığı üçün, müstəqil olmaq üçün çalışaq, həm öz ölkəmizi, həm də bütün dünya xalqlarını müstəqil edək.
Səhifeyi- nur, 16- cı cild, 81- ci səhifə.16/3/1982.

## İSLAM İNQİLABININ HƏDƏFİ.

Ümidvarıq ki, bu inqilab ümumdünya şəklini alsın və İmam Zamanın (ə) zühuru üçün bir növ hazırlıq olsun.
Səhifeyi- nur. 16- cı cild. 88 – ci səhifə. 21/3/1982.

## BÜTÜN DÜNYADA İSLAM NURU.

Allahdan bizə yardım etməsini istyirik ki, İnşəallah, İslam nurunu hər bir yerə saçsınlar. Səhifeyi- nur. 16- cı cild, 152- ci səhifə. 15/4/1982.

## İSLAMI YAYAQ.

Mən ümidvaram ki, bizim millətimiz, xüsusilə gənclər, indi bir-biriylə qardaş olduqları kimi həmişə qardaş olacaqlar. Onlar bütün işlərdə birgə olsunlar və inşəallah, və ölkəmizi düşmənlərdən qorusunlar, və ( onu bilin ki, ) heç kəs sizə ziyan vura bilməz.

Allah sizi qorusun, işlərinizdə müvəffəq olasınız, işlərinizi davam etdirərək qüdrətlə irəli gedin ki, inşəallah, İslamı hər yerə yayasınız. Səhifeyi- nur. 17- ci cild, 234- cü səhifə, 10/4/1980.

## İSLAMIN HƏR YERİ BÜRÜYƏCƏYİNƏ ÜMİDVARAM.

Sionistlərin planı həyata keçsin deyə elan olunmamış müharibəyə[1] bizi sövq etdilər.

---

[1] İranda İslam inqilabının qələbəsi ilə Amerika dünyanın ən mühüm strateji regionlarından birini əldən verdi və onun zəngin sərvətlərini itirdi. Buna görə də müxtəlif yollarla, necə olursa – olsun, yenidən İranda hərbi hökuməti ələ keçirtmək istəyirdi və bu iyrənc işlərində daxili muzdurlardan istifadə edirdi.. Amerikanın bütün bu işlərdən əli boşa çıxdıqda, İslamın İranda həqiqətə çevrilməsi, İslam inqilabının başqa ölkələrə yayılmasının qarşısını almaq



Təcavüzkar İraq qoşunlarının yaşayış məntəqəsinə hücumunun mənzərəsi.

Onların birinci hədəfləri bu idi ki, burada İslamın dirçəlməsinə mane olsunlar, bilirdilər ki, əgər İslam İranda dirçəlsə, başqa ölkələrdə də sirayət edəcək. Sionistlərin bazarı bağlanacaq və Amerika və SSRİ – nin əlləri İslam ölkələrindən üzüləcəkdir. Onlar İslamın İran çərçivəsindən çıxmaması üçün çalışırlar. Onların məqsədləri İranın məhv olması və onun yerində Amerikasayağı bir müsəlman ölkəsinin qurulmasıdır. İnşəallah onların bu səyləri boşa çıxacaqdır. Çünki bütün iranlılar – kişi və qadın , qoca və cavan, uşaq və böyük – Amerikanı və SSRİ – ni ölkəmizə buraxmayacaqlarını qərara almışlar. Onların ikinci hədəfi isə İslamı İranda həbs etməkdir, indi onlar İranın əleyhinə təbliğatlar Apararaq deyirlər ki, guya İranda vəziyyət çox pisdir, 15 yaşı hələ tamam olmamış yeniyetmələri zorla döyüş meydanlarına göndərirlər.

Onlar kənarda oturub Amerikanın radiosunu, Bİ-Bİ-Sİ radiosunu dinləyərək hökm çıxarırlar. Lakin onlar bu sözləri bilməməzlik üzündən deyil, İranı məhkum etmək üçün deyirlər. Onlar çox yaxşı bilirlər ki, hazırda İranda vəziyyət necədir, İraq

---

üçün İraq rejimini İran əleyhinə müharibəyə təhrik etdirdi. Bu müharibədə 100 minlərlə adam həlak oldu, 100 minlərlə adam yaralandı və əsir düşdü. Milyardlarla ziyan dəydi. lakin nə hegemon qüdrətlər, nə də onların nökərlərinin heç biri öz arzularına çata bilmədilər.

İrana təcavüz etmişdir. Onlar İraqa və İrana qarşı olan bu haqsızlıqları çox yaxşı bilirlər, ancaq öz mənfur məqsədlərini həyata keçirmək üçün bu işlərə əl atırlar. Onlar İslamı, İranı, İslam respublikasını və İran xalqını bədnam etmək istəyirlər ki, heç kəs öz yerlərində bu fikirləri dirçəltməsin.

Mən ümidvaram ki, onların bütün səyləri boşa çıxacaqdır.

Biz İslamı bütün dünyada tanıtdırmalıyıq.

İslam dünyada məzlumdur , bizimmm təbliğatımız naqis, təbliğatçılarımız isə azdır. Bütün beynəlxalq informasiya vasitələri onların əlindədir, çoxlu pulları vardır və istədikləri qədər xərcləyirlər. Bnunla belə məyus olmamalıyıq. Elə bu azlığımızla arxasında butun dunya durmuş Məhəmmədrzanın böyük şeytan qüdrətini darmadağın etdik və inşəallah, İslamı Allahın istədiyi kimi həyata keçirəcəyik və hazırda bu işdə irəliləyirik.

Bundan sonra heç kəsi ( bizə hökumət etsin deyə ) bura buraxmayacağıq, bizim təbliğat mərkəzlərimiz, universitet və seyziyyənin (Qumda mədrəsə ) yüksək çalışqanlığı nəticəsində geniş və hər tərəfli təbliğat meydana gəlsin və inşəallah qısa bir müddətdə təbliğatımız elə bir yerə çatacaqdır ki, bütün dünya İslam simvolu ilə dolacaqdır.

Səhifeyi – nur, 18- ci cild, 102-103-cü səhifə, 5/5/1983.

## İNQİLABIN YAYILMASI İMAM ZAMANIN (Ə) QİYAMI ÜÇÜN ƏLVERİŞLİ ŞƏRAİT YARADIR.

Mənim son sözüm budur ki, sizin atalarınızın qanlarının səmərəsi olan İslam Respublikasına vəfadar olasınız.

Sizin hazırlığınız, inqilabın yayılması, şəhidlərin qanlarının peyğamının yayılması aləmin nicatvericisi olan Həzrət Bəqiyyətullahın – ruhumuz ona fəda olsun - qiyamı üçün zəminə yarada bilər.

Səhifeyi- nur, 19- cu cild, 297- ci səhifə 28/4/1986.

## HEGEMON QÜDRƏTLƏR BİLSİNLƏR Kİ, BİZ AXIR NƏFƏSİMİZƏDƏK DAYANACAĞIQ.

Bütün hegemon dövlətlər bilməlidirlər ki , biz axır mənzil, axır nəfər və axır qətrə qanımıza qədər Allah kəlməsini ucaltmaq üçün onların müqabilində dayanacağıq.

Onların meyllərinin əksinə olaraq nə şərqə və nə də qərbə bağlı olan hökumətin əsasını dünyanın bir çox ölkələrində quracağıq və dünya qüdrətləri Qüds günündə[1] xalqımızın hüzuru ilə olan böyük və tarixi səhnəni nə tez

---

[1] İmam Xomeyninin (rə) fərmanı ilə hər Ramazan ayının axırıncı cüməsi Qüds günüdür. Milyonlarla müsəlman həmin günü yürüş və mitinq keçirirlər.

unutmuşlar. Əgər bü, onlarla dəfə təkrar olsa da belə, xalqımız həmin xalq aə səhnələr həmin səhnələrdir.
Səhifeyi – nur . 20- ci cild, 61-ci səhifə. 5/2/1987.

## HƏR YERDƏ İSLAM ƏDALƏTİNİN GENİŞLƏNMƏSİ.

Biz ümidvarıq ki, cavanlarımız elə əvvəllərdəki kimi sevinclə müharibə meydanlarına getdikləri, İslamı qalib etmək üçün səy etmələri, İslamı xarici qüdrətlərin şərindən qurtarmaq və bütün müsəlman ölkələrində hökmfərman olan özbaşınalıqlara son qoymaq istəyində olduqları kimi, indi də düşmənlər üzərində qələbə çalsınlar. Elə etsinlər ki, İslam hökuməti, habelə islam ədaləti hər yerdə vüsət tapsın.
Səhifeyi – nur, 20-ci cild 65 – ci səhifə, 10/2/1987.

## HEGEMON QÜDRƏTLƏRƏ RAHAT YUXUNU HARAM EDƏCƏYİK.

Xomeyninin şənindən çox uzaqdir ki, müşrik və kafir ünsürlərin Qurana, İslam peyğəmbərinə, onun ümmətinə etdikləri təcavüzün müqabilində sakit qalsın və müsəlmanların həqarət və zillət halına tamaşa edə. Mən vacib borcumu yerinə




Pakistanda keçirilən ümumdünya Qüds gününün
mitinq mrasimi.

yetirmək üçün öz qanımı və canımı bu yolda qurban verməyə hazıram. Böyük intizarındayam.

Bütün hegemon və istismarçı dövlətlər, onların nökərləri arxayın olsunlar ki, Xomeyni tək və tənha qalsə da belə , öz yoluna – küfrlə, zülmlə, şirk və bütpərəstliklə mübarizə yoluna davam və İslam dünyasının ayaqların məzlumları ilə birlikdə, Allahın köməyi ilə diktator və qaniçən vəhşi qüvvələrə rahat yuxunu haram edəcəkdir.
Səhifeyi-nur, 20-ci cild, 113-114 –cü səhifə, 28/7/1987.

## İRAN İSLAM İNQİLABI ZÜLM SARAYLARININ DAĞILMASINA MÜQƏDDİMƏDİR.

Ey Allah! Bizim islam inqilabımızı dünyanın hər yerində zalımların zülm saraylarının dağılması və təcavüzkarların ömürlərinin qurtarmasına müqəddimə et.

Bütün millətləri bu ayaqyalın məzlumların bərəkətindən bəhrələndir.
Səhifeyi-nur, 20-ci cild. 118-ci səhifə. 28/7/1987.

## TƏCRÜBƏLƏRİMİZİ HƏR YERƏ YAYACAĞIQ.

Biz bütün dünyaya təcrübələrimizi yayacağıq , haqq yolunda döyüşən mübarizələrə zalımlarla necə vuruşmaq və müdafiə olunmaq təcrübələrimizin nəticələrini yetirəcəyik.

Heç şübhəsiz ki, bu təcrübələri çatdırmağın nəticələri , əsarətdə olan millətlərə istiqlaliyyət

bəxş etməkdən və İslam hökmlərini bu ölkələrdə yerinə yetirməkdən başqa bir şey deyildir. Bütün İslam ziyalıları kapitalizm və kommunizm dünyasını alt – üst etmək üçün çalışmalı və bütün istiqlaliyyət istəyənlər hegemon dövlətlərin, məxsusən Amerikanın üzünə sillə vurmağın yolunu dəqiq surətdə müəyyən etməlidirlər.

Mən yəqinliklə deyirəm : İslam istismarçı dövlətləri zəlil və xar olmuş bir vəziyyətdə öz yerində otuzduracaq , qarşısına çıxan bütün maneələri bir-birinin ardınca aradan qaldıracaq və dünyanın həssas səngərlərini fəth edəcəkdir. Səhifeyi – nur, 20-ci cild, 118-ci səhifə.28/7/1987.

## İSLAM ÖLKƏLƏRİNDƏ İSLAMIN HƏQİQƏTƏ ÇEVRİLMƏSİ ÜÇÜN QƏTİ FİKİR.

Allahın lütfü ilə , bizim İslam respublikamızda siyasi və idealoji mövqelər üzərində heç bir ixtilaf mövcud deyil.

Hamı həqiqi tovhidi bütün müsəlman ölkələrində həyata keçirməyi və düşmənin başını daşa vurmağı qərara almışdır ki, yaxın gələcəkdə İslam bütün dünyaya hakim olsun.
Səhifeyi – nur., 20-ci cild, 123 –cü səhifə, 28/7/1987.

## TƏCAVÜZKARLARIN ZÜLM ƏLLƏRİNİ KƏSƏCƏYİK.

Bİz, Allahın köməyi ilə, bütün zalımların islam dövlətlərindəki təcavüzkar əlini kəsəcəyik və

inqilabımızı hər yerə yetirməklə onların səltənətinə son qoyacaq, İmam Zamanın (ə) zühuru üçün zəmin yaradacağıq.
Səhifeyi- nur. 20-ci cild, 132- ci səhifə.28/7/1987.

## BİZ SİONİZMİN, KAPİTALİZMİN VƏ KOMMUNİZMİN XARAB KÖKLƏRİNİ QURUDACAĞIQ.

Biz xarici və beynəlxalq siyasətimizdə dəfələrlə bu həqiqəti elan etmişik ki, dünyada İslamın nüfuzunu genişləndirmək və hegemon dövlətlərin istismarını azaltmaq niyyətindəyik və Amerikanın nökərlərini bizim bu siyasətimizi - qüdrət tələblilik - və imperiya adlandırmaqlarından da qorxmayırıq.

Biz dünyada sionizmin, kapitalizmin və kommunizmin xarab və zərərli köklərini qurutmaq niyyətindəyik.

Biz qərara almışıq ki, bu üç özül üzərində olaraq hər bir quruluşu Allahın lütf və mərhəməti sayəsində məhv edərək Allah Peyğəmbərinin (s) İslam quruluşunu bütün dünyada yayaq və əsarətdə olan millətlər də gec-tez bunun şahidi olacaqlar.

Biz bütün varlığımızla – zor gücünə olsa da belə - Amerika məmurlarının toxunulmazlığını və soyğunçuluqlarının qarşısını alacağıq. İnsaniyyətin uca zirvəsində məzlumların səsini dünyada əks etdirən və tovhid sədasını yayan bu böyük minbərdən ( Kəbə və Həcc ) Amerika və SSRİ ilə

- küfr və şirk ilə əlaqələr sədasının səslənməsini istəmirik

Allahdan istəyimiz budur ki, nəinkt yalnız müsəlmanların Kəbəsindən, habelə bütün dünyadakı kilsə və məbədlərdən də Amerika və Rus imperiyasının ölümünün sədası səslənsin. Səhifeyi – nur. 20-ci cild. 232- ci səhifə.20/7/1988.

## ƏSAS VƏZİFƏMİZ DÜNYADA İSLAMI YAYMAQDIR.

Məsul şəxslərimiz bilməlidirlər ki, İnqilabımız yalnız İrana məxsus deyildir, İnqilabımız İmam Zamanın[1] (ə) ümumdünya inqilabı üçün birinci mərhələ və başlanğıc nöqtəsidir. Əgər iqtisadi və maddi məsələlər məsul şəxsləri - hətta bir an belə - öz öhdələrində olan vəzifədən saxlasa, o vaxt bunun ardınca çox böyük və xətərli xəyanətlər gələcəkdir.

İslam dövlətinin bütün təlaş və səyi xalqın rifahı və düzgün idarəsi üçün olmalıdır. Lakin bu heç də o demək deyildir ki, onlar inqilabın ən böyük hədəfindən - ümumdünya İslam hökuməti qurmaq - fikrindən daşınsınlar. Əziz İran xalqı, doğrudan da islam tarixinin hazırki dövrünün ən nurlu simalarındandır.

Onlar Allah xatirinə bütün çətinliklərə dözməlidirlər ki, məsullar da öz əsas vəzifələrinə

---

[1] Məqsəd on ikinci imam Həzrət Mehdidir (ə)

ki,.. İslamı bütün dünyada yaymaqdan ibarətdir, əməl etsinlər.
Səhifeyi – nur. 21-ci cild, 108- ci səhifə 22/3/1989.

# ÜÇÜNCÜ FƏSİL.

## İSLAM İNQİLABI ZÜLM ALTINDA OLAN XALQLAR ÜÇÜN DƏYƏRLİ BİR NÜMUNƏDİR.

### İSLAM İNQİLABI BÜTÜN MİLLƏTLƏRİ ŞƏRQ VƏ QƏRBƏ ASILILIQDAN QURTARMAQ FİKRİNƏ SALMIŞDIR

Sual : Sizin fikrinizcə başladığınız bu hərəkat İranda və başqa yerlərdə məsələn Türkiyədə cihadın əmələ gəlməsinə səbəb olacaqmı ?

Cavab : Bu bizə aid deyil. Bizim millətimiz bütün müsəlman ölkələrinə təsir edəcək və millətləri Şərq və Qərbin asılılığından qurtarmaq fikrinə salacaqdır.

Səhifeyi – nur, 4-cü cild, 192-ci səhifə. 10/101979.

### BİZİM HƏRƏKATIMIZ GETDİKCƏ GENİŞLƏNİR.

Bizim hərəkatımız getdikcə genişlənir. Bütün millətlər görürlər ki, İran xalqı böyük və şeytani bir qüdrətin qarşısında durmuş və irəliləməkdədir.

Elə bir qüdrət ki, başqa qüdrətlərin hamısı onun arxasında durmuşlar, lakin bu millət onların qarşısında dayanaraq müqavimət göstərmiş və irəliləmişdir.

Başqa millətlər də əvvəllər bizim olduğumuz acınacaqlı vəziyyətdədirlər.[1] Misir xalqı Sadatın[2] əlində, başqa yerlər isə başqalarının əlində qalmışdır.

Bütün xalqlar öz hökumətlərinin əlindən əziyyət çəkirlər və bu yükün altından çıxmaq istəyirlər.

İranın qiyam etdiyini, şəhid versə də irəli getdiyini gördükdə başqa xalqlar da qiyam və mübarizə etmək fikrinə düşürlər və tezliklə bu işi edəcəklər.

Səhifeyi- nur. 11- ci cild. 45- ci səhifə.19/72/1975.

## BÜTÜN MÜSƏLMAN ÖLKƏLƏRİNDƏ MƏSULLARIN XALQ ADAMLARINDAN OLMALARINA ÜMİD EDİRƏM

Biz istəyirik ki, bütün müsəlman ölkələri, zəif və köməksizlər yaşayan bütün dünya ölkələri bir cəmiyyət olsunlar. Prezident, baş nazir və başqa məsul şəxslər bu cəmiyyətin içindən çıxsın ki xalqa ziyan dəyməsin.

---

[1] yəni onlar bunu görür. İbrət dərsi alır və nəticədə hərəkatımız genişlənir. ( tərcüməçidən )

[2] Misirin sabiq prezidenti olan Ənvər Sadat, - Kemp Devid - müqaviləsini 1978- ci ildə imzalamaqla Amerikaya bağlı olan Ərəb ölkələrini İsraillə əməkdaşlığa sövq etdirdi. O. 1981 – ci ildə hərbi parad zamanı Xalid İstanbuli adlı gənc müsəlman zabiti tərəfindən öldürülmüşdür.

Səhifeyi – nur. 12-ci cild. 286-cı səhifə. 11/8/1980.

## İSLAMIN ÜZƏRİNDƏKİ PƏRDƏNİN GÖTÜRÜLƏCƏYİNƏ ÜMİD EDİRİK.

İslam əsrlər boyu məzlum olmuşdur. Çünki İslamın istədiyi şey həmişə pərdə arxasında qalmış, onun nəzəriyyə və proqlamları heç vaxt lazımınca həyata keçirilməmiş və millətlər İslamdan bixəbər qalmışlar. Zalım və istismarçı qüvvələr tarix boyu çalışmışlar ki, islamı pərdə arxasında saxlasınlar və bu istiqlaliyyət tələb edən, zalımlarla mübarizə, məzlumlarla qardaş olan məktəb və məzhəbi bütün dünyada düzgün tanıtdırmağa qoymamışlar.

Mən ümidvaram ki, bu zamanda biz, bütün əzizlərimiz və bütün İslam təbliğatçıları müvəffəq olsunlar ki, zorakıların İslamın üzərinə çəkdikləri pərdələri və İslamın gizlədilmiş həqiqətlərinin, təbliğatçıların və xidmətdə olan bütün gənclərin əli ilə aradan götürülsün.

Qüdrətlər, iş başına gələnlər istər İslamla müxalif olanlar, istərsədə müxalif olmayanlar, bilərəkdən ya nadanlıq üzündən İslamı pərdə arxasında saxlamışlar.

İslamın qüdrəti bütün dünya və cəmiyyətlər üçün gizli qalmışdır.

İndiki zamanda İslamın kiçik bir nümunəsi İranda həyata keçmişdir və bu nümunənin səbəbi ilə bütün dünyaya sübut oldu ki, bizim

cavanlarımız islamın istədiyi kimi canlarını İslam yolunda qurban verməyə hazırdırlar.

Onlar İslamın istədiyi kimi küfr və dinsizliyin, habelə zülm və haqsızlığın qarşısında mərdliklə durdular, fədakarlıq edib igidlik göstərərək, bu mətləbi tarixə həkk etdilər.

Səhifeyi- nur. 16- cı cild, 57- ci səhifə, 1/3/1982.

## HÖKUMƏTLƏR MİLLƏTLƏRİN DƏYİŞMƏLƏRİNDƏN QORXURLAR.

Bizim millətimiz inqilab etmiş və dəyanətlə dayanmışlar.

Allaha şükür olsun ki, hələ də qalibdirlər, siz qalib gəlmişsiniz.

Dünyanın bütün dövlətləri bundan qorxurlar ki, olmaya, birdən onların xalqları da sizin kimi qiyam edələr.

Siz qalib gəlmisiniz. Bu yolda dözümlülük göstərin ki, qələbə nəsibiniz olsun.

Səhifeyi- nur. 17-ci cild. 25-26- cı səhifə. 19/9/1982.

## İSLAMIN GÜNƏŞ KİMİ ŞƏRQ VƏ QƏRBƏ NUR SAÇACAĞINA ÜMİD EDİRİK.

Ey Allah! ... İran xalqı dünyada İslamın başucalığına səbəb olmuş və nümunəvi bir ölkə qurmuşdur ki, İslamın günəş kimi Şərq və Qərbə nur saçacağına umid edirik.

İlahi ! bütün məzlum millətlərə zalım rejimlər üzərində qələbə çalmaq qüdrəti ver.

Səhifeyi – nur, 17- ci cild. 206-207- ci səhifə. 11/2/1983.

## İRAN MİLLƏTİ BÜTÜN DÜNYAYA NÜMUNƏDİR

Sizin nümunəvi bir millət olduğunuza görə hamınızdan razıyam. Ümid edirəm ki, nümunəvi millət İranda , hətta dünyada inqilabların əmələ gəlməsinə səbəb olacaqdır.
Səhifeyi – nur , 20- ci cild 79- cu səhifə 28/3/1987.

# DÖRDÜNCÜ FƏSİL

## İNQİLABIN YAYILMASINDA HƏDƏF.

### MƏNƏVİYYATI YAYMAQ İSTƏYİRİK.

Bizim « inqilabı yaymaq istəyirik » sözündən məqsədimiz budur ki , İranda əmələ gəlmiş mənəviyyatı bütün dünyaya yayaq.

Biz silah işlətmək və hücum etmək fikrində deyilik .

İraq bizə hücum etmişdir. Biz isə yalnız müdafiə olunuruq. Müdafiə hər bir millətə lazımdır.

Biz mədəni və islam inqilabını bütün müsəlman ölkələrinə yaymaq istəyirik. Çünki inqilabımız hər yerə yayılarsa, orada çətinliklər həll olar.

İran inqilab etdiyi kimi, siz də çalışın ki, öz millətlərinizi ayıldasınız.

İslam üçün ürəkləri yananlar öz xalqlarını oyatmalıdırlar ki, İranda baş vermiş bu ilahi dəyişiklik başqa yerlərdə də yaransın. Bu hər hansı bir yerdə yaranarsa, orada çətinliklər həll olar.

Belə olduqda, 4 – 5 nəfər alçaq xəyanətkarın Məscidül – əqsanı almaq istəyindən qorxmazsınız.

Lakin bir milləti, 10 yerə bölünsə və hər biri o birisi ilə ixtilafda olsa, hökümətləri də belə olar, belə bir təfəkkür tərzi ilə bu ölkə və millət heç vaxt düşmən üzərində qələbə çala bilməz.

Səhifeyi – nur, 12- ci cild, 283- cü səhifə, 9/8/1980.

## BİZ BÜTÜN MİLLƏTLƏR VƏ DÖVLƏTLƏR ARASINDA BARIŞIQLIQ YARATMAQ İSTƏYİRİK.

Dünyanın hansı bir yerində görmüsünüz ki, millət özü İslam və İslam dövlətinə bu qədər xidmət göstərsin ?

İnqilabımızı bütün dünyaya yaydıqda dedikdə məqsədimiz hər yerdə elə bir vəziyyət yaratmaqdır ki, zorakı və qaniçən dövlətlər bir daha olmasın.

Dövlətlər düşmənləri ilə yox, öz millətləri ilə bir olsunlar.

Biz bütün millətlər və dövlətlər arasında sülh və barışıqlıq yaratmaq istəyirik.

Əgər başqa dövlətlər, İran dövləti ilə xalqın münasibətlərini gözdən keçirsələr, bu onlara çox böyük təsir edəcəkdir.

Səhifeyi –nur, 12- ci cild, 285- ci səhifə. 11/8/1980.



İran əleyhinə İraq dövləti tərəfindən başlanmış müharibədən bir səhnə.

## ARZUMUZ BUDUR Kİ, HEGEMON QÜDRƏTLƏR MÜSƏLMANLARI QARƏT ETMƏKDƏN ƏL ÇƏKSİNLƏR.

- Biz inqilabı hər yerə yayacağıq, - dedikdə elə başa düşülməsin ki, ölkəmizi genişləndirmək istəyirik.

Biz bütün müsəlman dövlətlərini özümüzünkü hesab edirik.

Bütün ölkələr öz yerlərində qalmalıdır. Biz istəyirik ki, İranda olan bu dirçəliş hegemon qüdrətləri özlərindən uzaqlaşdıraraq onların əllərini öz xəzinələrindən kəssinlər. Budur bizim arzumuz.

« İnqilabı yaymağın » mənası budur ki, bütün dövlət və millətlər oyanaraq özlərini bu çətinliklərdən xilas etsinlər, qoymasınlar ki, onların sərvətlərini düşmənlər göyə sovursunlar.
Səhifeyi – nur, 13- cü cild, 127- ci səhifə. 20/10/1980.

## DÜZGÜN TƏBLİĞAT İNQİLABIN YAYILMASINDA MÜHÜM AMİLDİR.

- İnqilabımızı yaymaq istəyirik dedikdə məqsədimiz qılınc və zor gücünə deyil, təbliğ yolu ilə yaymaqdır.

Biz öz düzgün təbliğatımızla kommunistlərin və başqalarının İslam əleyhinə apardıqları geniş təbliğatı puça çıxarmaq və İslamın hər şeyə qadir olduğunu demək istəyirik.

İslam indiki xristianlıq demək deyildir.

Səhifeyi – nur, 18- ci cild, 80- cı səhifə.24/8/1983.

## « FARS KÖRFƏZİ » ÖLKƏLƏRİ İNQİLABIN YAYIL MASINA MANE OLMAQ FİKRİNDƏDİRLƏR.

Biz zor gücünə deyil, aşkar dəvətlə İslamı dunyanın hər yerində yaymaq istəyirik. İslamın nədən ibarət olduğunu və dünyaya nə bəxş etdiyini dünyanın bütün ağıllı şəxslərinə və məzlum millətlərinə göstərmək istəyirik.

İslam bütün köməksizlərə, məzlumlara nicat vermək istəyir.

Lakin siz Fars körfəzi ölkələri - başqa ölkələr kimi - çalışırsınız ki, İslam İrandan bir addım belə kənara çıxmasın. Halbuki, İslam İrandan kənara çıxmış və çıxacaqdır da.

Səhifeyi- nur. 18-ci cild 129- cu səhifə. 26/9/1983.

## İSLAMI OLDUĞU KİMİ TANITDIRAQ.

Bizim « İslamı yaymaq istəyirik » deməyimizin mənası bu demək deyildir ki, təyyarəyə minək və onu bütün ölkələrə səpələyək.

Bu qeyri - mümkün bir işdir , lakin biz bunu edə bilərik ki, televiziya, radio və mətbuat vasitəsi ilə, xaricə gedən şəxslər ilə İslamı olduğu kimi, həqiqi simasında aləmə tanıtdıraq.

Əgər İslamı olduğu kimi tanıtdırsaq hamı onu qəbul edəcəkdir.

Bəşər sağlam fitrətə malikdir və həqiqəti qəbul edəcək. Hegemon qüdrətlər də elə bundan qorxurlar.

Deməli, bizim boynumuzda ağır bir yük var. Nəinki təkcə biz, hətta bütün müsəlmanlar, İran və başqa ölkələr də İslama vəfadar olanların öhdələrində böyük məsuliyyət vardır, o da budur ki, islamı olduğu kimi, Allah – təalanın buyurduğu kimi, Quranda və hədislərdə nəql olunduğu kimi camaata çatdıraq, bütün dünyaya çatdıraq. Bu özü minlərlə top və tankdan təsirli ola bilər.

Yol göstərmə ( hidayət etmə ) ilə düzələn şey camaatın ürəklərini qaytara bilir, və bu iş islamın və İslam hökmlərinin bacarığıdır. Top və tank isə belə bir işdən acizdir.
Səhifeyi – nur. 18- ci cild. 243- cü səhifə. 28/2/1984.

## SÖZÜMÜZÜ BÜTÜN DÜNYAYA ÇATDIRMAQ İSTƏYİRİK.

Biz əvvəldən demişik ki, İnqilabımızı yaymaq istəyirik.

İnqilabı yaymaq, ordu ilə hücum etmək deyil, sözümüzü dünyaya çatdırmaq deməkdir.

Bu işi öhdəsinə alan mərkəzlərdən biri də Xarici İşlər Nazirliyidir.

Bu Nazirlik İran və İslama aid olan məsələləri, İranın Şərq və Qərbdən çəkdiyi əziyyətləri bütün dünyaya yetirməlidir.

50 .........................................................................

Səhifeyi- nur. 19- cu cild. 242- ci səhifə. 2/11/1985.

# BEŞİNCİ FƏSİL

## İNQİLABIN YAYILMASININ SƏBƏB, ŞƏRAİT VƏ ÜSULLARI.

### MİLLƏTLƏRİN GÖZÜ İRANDADIR.

Əgər İslam İranda həqiqətə çevrilsə, bilin ki, bütün ölkələrdə də həmin hal baş verəcəkdir, bunun nümunələri mövcuddur.

İrana olan qabaqkı xilaf hərəkətlər, başqa ölkələrdə də - İslam irandan o ölkələrə keçməsin deyə - icra olunur. Lakin əbəs yerə çapalayıplar. İslam oralara da sirayət edəcəkdir.

Yəni xaricdən irana gələnlər öz millətləri haqda danışdıqda deyirlər ki, onların nəzər diqqətləri irana yönəlmişdir və bu həqiqətin İraqda, Küveytdə, Misirdə və başqa yerlərdə də baş verməsini istəyirlər. Əgər bu rolu yaxşı ifa etsək və İslamı olduğu kimi İranda həyata keçirsək, həm qalib gələcəyik, həm də islam başqa ölkələrə də keçəcəkdir.

Nəzərimiz budur ki, bütün ölkələr İslam ölkəsi olsun və İslamın ədalətli höküməti hər yerdə hakim olsun.

Səhifeyi – nur. 9 – cu cild. 228-229 cu səhifələr.30/9/1979.

## VƏHDƏT İSLAMIN GENİŞLƏNDİRİLMƏSİNİN RƏMZİDİR.

Mən ümid edirəm ki, başladığımız bu xidməti inşəallah axıra çatdıraq, Allah – təalaya arxalanma və vəhdət ilə İslam bayrağını hər yerdə dalğalandıraq.
Səhifeyi –nur 12- ci cild, 101- ci səhifə. 19/5/1980.

## İSLAMA UYĞUN ƏMƏL, İNQİLABIN YAYILMASINA SƏBƏBDİR.

Səfirlikdə çalışanların vəzifələridir ki, Səfirlik idarələrini çox sadə şəkildə təşkil etsinlər, öz həmkarları ilə qardaşcasına rəftar etsinlər və eləcə də qonaqlıq məclislərini islam şəklinə salsınlar.

Belə ki, ora gələn hər bir şəxs İslamı əməli surətdə müşahidə etsin.

Biz nə qədər fəryad etsək ki, islamçıyıq , dövlətimiz də islamidir, lakin bunu bizdən əməli surətdə müşahidə etməsələr, heç kəs inanmayacaqdır.

O vaxt inanacaqlar ki, sözümüzlə əməlimiz bir olsun. İslamın qayda-qanunu ilə uyğun olsun. İslamı sungü və zor gücüylə yaymaq olmaz.

İslam hər yerə o vaxt nüfuz edəcəkdir ki, onun hiqiqəti, əxlaqı və humanitar qanunları buralarda

(səfirliklərdə) inkişaf etsin. Sizin vəzifəniz bundan ibarətdir ki, həm əməldə, həm də orada nəşr etdiyiniz yazılarınızda bunlara dəqiq surətdə riayət edəsiniz.

Özünüzün islam jurnalı olmalı və orada irəli sürdüyünüz islam məsələləri, çap etdirdiyiniz şəkillərin hamısı İslam respublikası ilə uyğun gəlməlidir ki, islam bu təbliğat vasitəsi ilə oralara da nüfuz etsin.

Həmçinin bizim xaricdə təhsil alan tələbələrimiz hər hansı bir millət və məzhəblə üzləşdikdə, İslamla və İranla bağlı olan məsələləri düzgün işıqlandırmalı, Xaricdə çap olunan yazıları düzgün təhlil edərək, məlumatların doğru olmadığını onlara sabit etməlidirlər.

Əsas məsələ budur ki, İslam qəlbimizdən cuşa gəlsin.

Əgər islamı istəyiriksə, gərək birinci növbədə özümüzdən başlayaq. Əyri fikirləri, olmayan sifətləri qəlbimizdən təmizləyək.

Hər bir insanda müəyyən bir naqislik (çatışmamazlıq ) vardır və əgər bunu dərk etmirsə, bunun özü bir naqislikdir.

Əsas məsələ budur ki, biz qəlblərimizdə resrublikamızın. İslam respublikası olmaq istəyini olduğunu başa düşək.

Dildə dediyimiz kimi, ürəyimizdə də bu inamda olaq ki, biz islamı istəyirik.

Biz istəyirik islam olsun, qalan şeylərlə insan özü mübarizə etməli və birinci özündən başlamalıdır ki, görsün hansı əyrilikləri var.

Aydındır ki, insan öz eyblərini bilir, öz eyblərini bilməyənlər çox az olur və bu özü də bir eyb sayılır.

İnsan tərbiyə olunmalı, özündən və öz ailəsindən başlamalıdır.

Siz özünüzdən, ailənizdən başlayın ki, bu iş xaricdə də sirayət etsin.

Tələbələrimiz də bu məsələyə ciddi fikir verməlidirlər ki, rəftar və danışıqları islam meyarları ilə uyğun gəlsin, hər hansı bir milləti İslama dəvət etdikdə, əməlləri ilə danışıqları ziddiyyət yratmasın.

Siz özünüz elə bir vəziyyətdə olmayın ki, siz bir söz deyəndə: - Buna bir bax, özü nə gündədir, bizi nəyə çağırır ! - desinlər.

Özünüzü tanıtdırdıqdan sonra camaatın əksəriyyətini təşkil edən sağlam təbəqə sizi qəbul edəcəkdir.

Qəbul etdikdə isə yavaş-yavaş əməl edəcək, yavaş-yavaş İslam inqilabı xaricdə yayılmağa başlayacaq.

Allah sizin hamınızı qorusun, hamınızı müvəffəq etsin ki, İslamı hər yerdə gücləndirmək əzmində, İslamı yayanlar və Allahın ordusundan olaq, təki inşəallah öz məmləkətimiz , həm də başqa müsəlman ölkələri, eləcə də dünya müstəzəfləri müvəffəq olsunlar.

Mən Allah- təaladan sizin hamınızın sağlamlığınızı və səadətinizi istəyirəm.

Millətimizin vəzifəsi bundan ibarətdir ki, hər yerdə islam əxlaqı və rəftarı nümayiş etdirsinlər.

Çünki İslam əxlaqına zidd olan hərəkətlə başqaları ilə davransalar, bu , düşmənlərə bizim ölkəmizi əzmək üçün bir bəhanə olacaqdır.

Xaricdə olan gənclərimiz, səfirliklərdəki işçilərimiz, xaricdə olan İslam cəmiyyətləri, hətta xaricdə olan İranlı, ya qeyri-iranlı bütün müsəlmanlarla islam rəftarı ilə davranmalıdırlar.

Hamımız vəzifəliyik, amma sizin vəzifəniz daha ağırdır.

Allahın köməyi ilə, inşəallah, dünyanın hər nöqtəsində islamı tanıtdırmağa müvəffəq olasınız və Allah sizin hamınızı, bütün dünya məzlumlarını hifz eləsin.

Səhifeyi- nur, 13- cü cild, 263-264- cü səhifə.6/1/1981.

## İNQİLABI ƏMƏL VƏ ƏXLAQINIZLA YAYIN.

Sizin [1] ən mühüm vəzifələrinizdən biri də budur ki, oxuduğunuz və ya işlədiyiniz ölkələrdə əməl və davranışlarınız səyəsində İslam yayılsın.

İnsanın fitrəti və təbiəti safdır, fərz edin ki, hər hansı bir ölkəyə varid olmusunuz və bu ölkəni öz məmləkətiniz kimi tərbiyələndirmək, İslamı yaymaq istəyirsiniz.

İslamı yaymaq o deməkdir ki, İslam əxlaqı, ədəbləri və əməlləri orada elə olsun ki,camaatın diqqətini özünə cəlb etsin.

---

[1] İranın xaricdəki səfirliklərinin məsulları və işçilərinə işarədir.

Mühüm məsələlərdən biridə səfirliklərdə jurnal çap olunmasıdır.

Jurnal islami- əxlaqi olmalıdır, tağut rejiminin çap etdirdiyi jurnallar olmamalıdır.

Bu jurnalda islami – əxlaqi məsələlər və İrandakı vəziyyət işıqlandırılmalıdır.

Gördüyünüz kimi hazırda demək olar ki, dünyanın hər yerində İslam Respublikasının əleyhinə təbliğat aparılır.

Qərb informasiya agentliklərinin və onlara bağlı olanların, habelə Şərqin və onlara bağlı olanların hərtərəfli təbliğatı.

Bu təbliğatlar ona görrədir ki, onlar İrandan qorxurlar, bundan əlavə, İrandakı mənafeləri əllərindən çıxmışdır və inşəallah, elə əbədi olaraq bu mənafelərini itirəcəklər.

Onların qorxduqları şey bu inqilabın və islam hərəkatının bütün dünyaya yayılmasıdır, çünki belə olsa zalım və qəddar rejimlər tədriclə məhv olacaqlar və inşəallah, onlar elə məhv olmaq üzrədirlər.

Səhifeyi – nur, 13- cü cild, 261 – 262 –ci səhifə.6/1/1981.

## MİLLƏTLƏR BİZİMLƏ MÜVAFİQDİRLƏR.

Harada hegemon və zorakı dövlətlər bizimlə müxalifdirlərsə, millətlər bizimlə müvafiqdirlər.

Dövlətlərin deyil, millətlərin fikrində olmaq lazımdır. Çünki zülm altında olan xalqlar haqqla müvafiqdirlər, SSRİ və Amerikanın müstəmləkəsi olmaq istəmirlər.

Bizim təbliğatımız yox dərəcəsində idi. Biz rəsmi səfərlərdən əlavə qeyri – rəsmi səfərlərə də çıxmalıyıq ki, dünyanı oyadaq.

Əgər inqilabı yaymaq istyiriksə, elə bir iş görməliyik ki, xalq özü höküməti ələ alsın, necə deyərlər, üçüncü təbəqə sayılan camaat iş başına gəlsin.

Yalnız qeyri – rəsmi səfərlər vasitəsi ilə adi camaatla görüşüb, onlara həqiqəti başa sala bilərsiniz.

Sizin zorakı və qəddar olmamağınız camaatı maraqlandıracaq və yaxşı təbliğ edə biləcəksiniz.
Səhifeyi – nur , 15- ci cild. 190- cı səhifə. 14/10/1981.

## ÖZÜNÜZÜN GÖZƏL ƏXLAQINIZLA İSLAM RESPUBLİKASINI TƏBLİĞ EDİN.

Sizin üzünüzdə görünən bu sevincin özü qələbə deməkdir və mən İranda baş vermiş inqilabı getdiyiniz başqa ölkələrdə də yayacağınıza ümidvaram.

Lakin ən böyük qələbəniz nəfsinizə qalib gəlməyinizdir.

Qədim zamanlardakı pəhləvanlar zorxanalarda İslama daha çox diqqət yetirmiş , bütün hərəkətləri Allahın və Həzrət Əlinin (ə) zikri ilə

birgə olmuşdur və bu onların ruhlarına təsir etmişdir.

Bu zikrlərin insanın ruhunda təsiri vardır. Siz özünüzün gözəl əxlaqınız, rəftar və davranışınız ilə inşəallah, İslam Respublikasının məqsədlərini xaricə yaymalısınız.

Siz əziz pəhləvanlar xaricə getdikdə, uğurlar qazandıqda, əgər camaat görsələr ki, əxlaqınız, rəftarınız başqalarından fərqlidir, bu özü səbəb olacaqdır ki, İslam və müsəlmanlar əleyhinə olan və habelə bizim millətimizin əleyhinə olan bütün təbliğatlar puça çıxsın.

Səhifeyi –nur, 15- ci cild, 258- ci səhifə, 12/12/1981.

## MƏTLƏBLƏRİ DÜNYA XALQLARINA ÇATDIRIN.

Siz hər hansı bir xarici ölkəyə getsəniz, İslamı müdafiə edin. Özümüz özümüzü qorumalıyıq, arxayın olun ki, heç kəs bizi qorumayacaqdır.

İrşad nazirliyi [1] fəal olmalıdır. Siz cənablar fürsətdən istifadə edərək mətləbləri dünya

---

[1] İslami İrşad və Mədəniyyət Nazirliyi İran İslam respublikasının mədəni işlərinin icraçısıdır. Onun fəaliyyətləri bundan ibarətdir :

A – İman və təqva əsasında əxlaq fəzilətlərinin inkişafı .

B – Mədəni müstəqillik cəmiyyətin əcnəbi mədəniyyətlərdən qorunması .

xalqlarına çatdırmalısınız. Camaat çox şeyi bilmir. Camaatla görüşün, müsahibə edin. İldə bir dəfə deyil, hər dəfə fürsət tapdıqda səfərə çıxmalı və xalqları ayıltmalısınız.

Sizin müvəffəqiyyətlə qayıdacağınıza ümid edirəm.

Səhifeyi – nur , 16- cı cild, 24- cü səhifə. 30/1/1982.

## İNQİLABIMIZI DÜNYAYA TANITDIRMALIYIQ.

Yola düşməli və inqilabımızı dünyaya tanıtdırmalıyıq.

İndi ələ yaxşı fürsət düşmüşdür, sizin müvəffəq olacağınıza ümid edirəm.

Bunu da bilin ki, camaat bizimlədir,bizim heç kəsdən kömək gözləmədən qiyam etdiyimiz kimi, indi də kimlərinsə bizim üçün təbliğ edəcəyinin intizarında olmamalıyıq.

Səhifeyi – nur, 16- cı cild, 23-24 – cü səhifələr, 30/1/1982.

---

V – müxtəlif sahələrdə xalqın ümumi məlumatlarının toplanması, tədqiqat üçün ruhiyyələrin qaldırılması.

Q – İslam mədəniyyət və incəsənətinin yayılması.

Ğ – Bütün dünyanı İslam inqilabının hədəf, simvol və əsasları ilə tanış etmək.

D – Müxtəlif xalqlar və millətlər ilə. Ələlxüsus, dünya müsəlmanları ilə olan mədəni münasibətlərin genişləndirilməsi.

E – Müsəlmanlar arasında vəhdət və birlik üçün imkan yaradılması.

## İRAN İNQİLABININ SƏBƏBLƏRİNİ OLDUĞU KİMİ TANITDIRAQ.

Xaricdə İslam əleyhinə olan təbliğatın xüsusi əhəmiyyətə malik olmasına, habelə onların həmahəng və yığcam olduğuna daha çox təsir etdiyinə görə cənab – alini [1]xaricdəki təbliğatı həmahəng etmək məqsədilə təyin etdim ki, bu zəminədə fəaliyyət göstərən Allahın istədiyi və bütün şəxslər, orqanlar , qurumlar və təşkilatlarla həmkarlıq nəticəsində bu həyati işi davam etdirəsiniz.

Nizam – intizamsızlığın qarşısı alınmalıdır ki, yalan məlumatlar və şayiələr yayanların əks təbliğatlarının qarşısı alınsın.

İslam Respublikası və İran inqilabının səbəbləri olduğu kimi tanıtdırılsın.

Səhifeyi – nur, 16- cı cild, 51- ci səhifə, 17/2/1982.

## MƏZLUMLARIN SƏSİNİ DÜNYAYA ÇATDIRMAQ ÜÇÜN ÇALİŞMALISINIZ.

Ölkədə, ələxsus xaricdə təbliğatın genişlənməsi ən mühüm işlərdəndir ki, ölkəmiz bundan illərlə məhrum olmuşdur.

Biz İslamın qorxusundan dəhşətə gələn zorakı dövlətlərin təbliğatları qarşısında düzgün təbliğatdan məhrumuq.

---

[1] İslami İrşad Nazirliyinin o vaxtkı nazirinə işarə edilir.

Səfirliklərimiz elə bir müsbət addım atmamışlar. Mədəniyyət Nazirliyi də son vaxtlardakı səylərinə baxmayaraq belə bir əhəmiyyətli işi yaya bilməmiş və bizim ölkəmiz məzlumcasına düşmənlərin yalançı təbliğatlarının amansız hücumlarına məruz qalmışdır.

Buna görə də dövlətimiz bütün qüvvələrini səfərbər edərək bu nöqsanı aradan qaldırmalıdır, və məzlumların səsini dünyaya çatdırmaq üçün radio kanallarının genişləndirilməsinə çalışmalıdır ki, başqa millətlər də bizdə olanları qısa da olsa belə bilsinlər.

Münasib fürsətlərdə başqa ölkələrə təbliğə gedənlər millətin məzlumiyyət fəryadını və zorakıların cinayətlərini başqa millətlərə və məzlumlara çatdırsınlar və onlara başa salsınlar ki, İran İslam Respublikası ilə müxalif olanlar, həqiqətdə İslamla müxalifətçilik edirlər və İslam harada olarsa, onunla müxalifətçilik edəcəklər.
Səhifeyi- nur, 16- cı cild, 46- cı səhifə. 11/2/1982.

## MİLLƏTLƏR İNSANİ DƏYƏRLƏRƏ MÜVAFİQDİRLƏR.

Biz mürtəce və camaatı talayan dövlətlərin arasında sıxıntıdayıq, çünki onlar hamılıqla bizim əleyhimizədirlər, amma millətlər belə deyil.

Millətlər haqla və insani dəyərlərlədirlər. Bu dövlətlərdirlər ki, insani dəyərlərdən xəbərsizdirlər.
Siz oralara getdikdə camaatla əlaqədə olun, camaat sizin görüşünüzə gələcəklər, İran dəyərlərini onlara göstərin.
Əxlaq, əməl və əqidə dəyərləri də inşəallah sizin vasitənizlə oralarda yayılmalıdır.
Səhifeyi- nur, 16- cı cild, 62- ci səhifə, 8/3/1982.

## XALQLARI İSLAMA DƏVƏT EDİN.

Siz İslam Respublikasından olduğunuz üçün başqa ölkələrdə nümunə olmalısınız.
İndi hər yerdə İslamı gücləndirməyə və həyata keçirməyə ehtiyacımız var və İslamı elə bizim ölkəmizdə olduğu şəkildə başqa ölkələrə də yaymalıyıq.
Siz gənclər[1] xaricə getdikdə çoxlu adamlarla görüşürsünüz.
Onları İslama dəvət etməlisiniz. Əməlləriniz və rəftarlarınızda hamı üçün nümunə olmalısınız..

İslam Respublikası sizin vasitənizlə inşəallah, başqa yerlərə də yayılacaqdır.
Səhifeyi- nur, 16- cı cild, 61- ci səhifə, 8/3/1982.

---

[1] İdmançılara işarədir.

## BİZİM TƏBLİĞATIMIZ ÇOX OLMALIDIR.

Bizim təbliğatımız çox olmalıdır, radio – televiziyanın əhatəsi artıq genişləndirilməlidir ki, öz mətləblərimizi dünyaya çatdıra bilək.

Hal – hazırda bildiyimiz mətləbləri yaymağa qoymurlar.

Amma əgər bizdən iynənin ucu qədər səhv bir iş baş verərsə, o dəqiqə radiolar görün nə edəcəklər ?

Səhifeyi –nur, 16- cı cild, 64 – 65 –ci səhifələr, 8/3/1982.

## ÖLKƏNİN XARİCİNDƏKİ TƏBLİĞAT XÜSUSİ ƏHƏMİYYƏTƏ MALİKDİR.

Aydındır ki, ölkədən xaricdə etdiyimiz təbliğat xüsusi əhəmiyyətə malikdir və Mədəniyyət Nazirliyi və Ali Təbliğat Şurası [1] və s... İslam mədəniyyətini yaymaq üçün saleh və layiqli şəxsləri yetişdirərək xaricə yollamalıdırlar.

Səhifeyı – nur, 16- cı cild, 221- ci səhifə, /7/1982.

---

[1] İslam inqilabının qələbəsindən sonra təbliğatda ruhiyyə yaradılması, habelə inqilabi mərasimlərin keçirilməsi üçün bir qrup ruhani şəxsiyyətlərin hüzuru ilə Ali Təbliğat Şurası yaradıldı.

Zamanın keçməsi və İslam təbliğat təşkilatı ilə İslam təbliğatında uzlaşdırma şurasının yaradılması ilə təbliğat fəaliyyətlərinin və inqilabın xüsusi mərasimlərinin keçirilməsi bu iki quruma tapşirildı.

# İSLAM ƏXLAQ VƏ DAVRANIŞİ İNQİLAB ÜÇÜN ƏN MÜHÜM TƏBLİĞDİR

İranın möhtərəm ziyarətçiləri diqqət etməlidirlər ki, inqilabi, islami və islam hökmlərinin icrasına vəfadar olan bir ölkədən həccə yola düşmüşlər.

Qoy dostlar görsünlər ki, möhtərəm ziyarətçilər İslama vəfadardırlar, öz rəftar və sözlərində, habelə dünya müsəlmanları ilə rastlaşdıqda İslam inqilabının abrını qorusunlar, zəhmət, kasıblıq və məşəqqət vaxtlarında səbr edir, Allahın hər bir şeyə qadir oldüğünu bilirlər və başucalıqla ölkəyə qayıdacaqlar, öz ölkə və inqilablarını dünya müsəlmanlarının arasında yüksəldir və əziz inqilablarını dünya müsəlmanlarına yayırlar.

Amma əgər – Allah eləməsin - İslam əxlaqına zidd olan bir sıra hərəkətlərə yol verilərsə, İslam və İslam Resrublikasına zərbə dəyəcəkdir ki bu da böyük günahdır.

Bununla yanaşı düşmənlər onların söz və rəftarlarına xələl vursunlar deyə – Allah eləməsin - əgər onlardan kiçik də olsa belə bir iş baş verərsə, düşmənlərin əllərinə bəhanə düşəcək, öz hay – küyçü təbliğatları ilə bu kiçik işi böyüdəcək və get – gedə İslam və inqilabı hamının gözündən salacaq, İran müsəlmanlarını başqa müsəlmanların gözündə pis tanıtdiracaq, İslamı ali insani dəyərlərdən uzaq olan bir

məktəb kimi, həmçinin xalqımızı geridə qalmış və mədəniyyətsiz kimi qələmə verəcəklər.
Səhifeyi – nur, 17- ci cild, 28- ci səhifə, 20/9/1982.

## İSLAMI TƏBLİĞ ETMƏK SƏFİRLİKLƏRİN BORCUDUR.

Dünyəvi elmləri tədris edən mərkəzlərlə ( universitetlər ilə ) dini hövzələrin həmişəlik bağlılıq və vəhdəti olmalıdır.
İslam və islam Respublikası üçün geniş təbliğat aparılmalıdır.
Səfirliklər hansı ölkədə olsalar, İslamı və İslam Respublikasını təbliğ etməlidirlər.
Səhifeyi –nur, 17- ci cild, 154- cü səhifə, 16/1/1983.

## VƏHDƏTİ QURMAQ İSLAMI YAYMAQDA ŞƏRTDİR.

Bu gün biz İslamı qorumaq üçün zehnimizdə olan küdurətləri bir kənara qoymalı və Allah xatirinə birləşməliyik.
Əgər Allah göstərməsin, İslam İranda böhrana uğrasa , bu bütün dünyada İslamın böhranına

səbəb olacaq və daha bir də bu tezliklə başını qaldıra bilməyəcəkdir.

İslamı İranda hifz etmək ən böyük vəzifədir və bu yalnız sizin vəhdətinizlə mümkündür.
Səhifeyi – nur, 17- ci cild, 222- ci səhifə, 21/3/1983.

## İNSANİ DƏYƏRLƏRİ SEÇMƏLİYİK.

Ümid edirik ki , İranın bu İslam mərkəzində iyrənc və pis dəyərləri dəfn olunacaq və əziz İslamı yayan və quran nurunu cilvələndirən bir vəziyyət yaranacaqdır ki, bütün dünyada dəfn olunmuş islam və insani dəyərlər dirilsin.

Bundan əvvəli budur ki, biz özümüzə diqqət edək, belə ki əgər insani və ilahi dəyərdərə tağut dəyərləri arasında iş çıxarsa, gərək insani dəyərləri seçək.

Əgər öz ölkəmizə xidmət edərək İslama və ölkəmizə vəfalı olmaqla Şərq və Qərb dövələtlərinə xidmət arasında olsaq, özümüz üçün olanı seçək.
Səhifeyi – nur, 17-ci cild, 239- cu səhifə, 24/4/1983.

## İNSANİ DƏYƏRLƏRİN YAYILMASI.

Bütün çətinliklərə qalib gəlmək istəyirsinizsə, bütün qüdrətlərin qaşısında möhkəm durmalı və beləliklə özünüzü bütün çətinliklər önündə hazır olmalısınız.

İnsani dəyərləri buradan başqa yerlərə də yaymalısınız, mədəni, iqtisadi və ictimai müstəqilliyinizi möhkəm saxlamalısınız və bu da yalnız İslam məktəbinə diqqət, Allah – təalaya siğinmaq, birlik və bütün təbəqələrlə qardaşlıq etməklə mümkündür.

Səhifeyi – nur, 17- ci cild, 238- ci səhifə, 24/4/1983.

## NİYYƏT XALİS OLDUQDA, İNQİLAB DALĞASI HƏR YERƏ ÇATACAQDIR.

Əgər məqsədimiz xalis və Allaha xatir olsa, heç şübhəsiz, bu ölkə qalib gələcəkdir və onun dalğası hər yerə çatacaqdır.

Allaha şükür olsun ki, sizin bu inqilabınız yayılmış və hətta xaricdə güclənməkdədir.

Səhifeyi- nur, 18- ci cild, 169- cu səhifə, 20/11/1983.

## DÜNYANI İSLAH ETMƏK QƏRARINA GƏLMİŞİK.

Meydanı tərk etməlisiniz. Əslinə qalsa, imanlı şəxsləri meydandan çıxarmaq üçün ( bəziləri ) çətinliklər törədirlər.

Meydanda möhkəm dayanmaq lazımdır.

Peyğəmbəri – Əkrəmə üz verən çətinliklər heç kimə üz verməmişdir, o həzrət bütün bunlara baxmayaraq, bütün çətinliklərə sinə gəldi və öz vəzifəsini yerinə yetirdi.

İmamlarımız da bu cür olmuşlar. Elə buna görə idi ki, həbs olurdular, tutulurdular.

Biz də ki, inşəallah, İslama vəfadarlıq və onun inkişafını istəyirik, məqsədimiz dünyada bir dəyişiklik yaratmaqdır və xalqların özlərinin bu işi görəcəklərinə ümid edirik.

Səhifeyi – nur, 18 – ci cild, 197 – 198 –ci səhifələr, 2/1/1984

## ELƏ İŞ GÖRƏK Kİ, BAŞQA MLLƏTLƏRƏ DƏ TƏSİR ETSİN.

Gördüyünüz kimi xaricdə vəziyyət bizimkindən fərqlidir.

Ümidvarıq ki , onlarında vəziyyəti düzəlsin.

Orada olduqda elə edin ki, siz onların təsiri altına yox, onlar sizin təsiriniz altına düşsünlər.

Yaxşı olar ki, yazıçılar, dövlət qulluqçuları və şəxslərimiz də belə olsunlar, başa düşsünlər ki, bizim vəziyyətimiz daha yaxşıdır.

Belə olduqda, inşəallah, getdikcə onlara nüfuz edəcək və inqilabınız da yayılacaqdır.

Biz də inqilabın bu cür yayılmasını istəyirik. Səfirlərimiz elə bir iş görsünlər ki, oranın səfirləri və dövləti bunların təsiri altına düşsünlər, dövlətimiz və millətimiz elə işlər görsünlər ki, başqa dövlətlər və millətlərə təsir

səhifeyi- nur, 18- ci cild, 209-210- cu səhifələr, 17/1/1984.etsin.

## DÜNYA MƏZLUMLARINI ƏDALƏTLİ İSLAM HÖKUMƏTİ İLƏ TANIŞ EDƏK.

Siz illərlə şahlıq rejiminin təzyiqinə məruz qalan, Allahın mərhəməti və İmam Zamanın (ə) duası ilə çətinliklərə dözərək öz müqəddəs hədəfi yolunda minlərlə şəhid və yaralı verən bir ölkədən həccə gedirsiniz.

Siz ölkəsi gah Şərqə, gah da Qərbə yönələn, dinsizlik, pozğunluq və əxlaqsızlığa qərq olmuş bir ölkəni nicat vermiş, zalım rejimin yerinə islami hökuməti gətirmiş bir millətin müraciət və peyğamını aparirsınız.

Bu xalq İslam inqilabının peyğamını təkcə müsəlman ölkələrinə deyil, məzlum millətlər olan başqa ölkələrə də yaymaqla, onları əziz İslam və ədalətli İslam hökuməti ilə tanış etmək qərarına gəlmişlər.

Siz elə bir millətin nümayəndələrisiniz ki , onların İslam inqilabı öz qısa ömrü və iki hegemon qüdrətin – Şərq və Qərb blokunun toqquşması, habelə hər iki tərəfə bağlı olan terroristlərin ziyanlarından çəkdiyi çətinliklərə İslamın bərəkəti və camaatın müqaviməti nəticəsində qurtularaq, İslam ölkələrini Şərq və Qərbdə, dünya müsəlmanlarını isə dünyada silkələmiş və onları İslama cəlb etmişdir. Həmçinin zəifdə olsa İslamın sədasını dünyaya

çatdıra və onların nəzərlərini özünə cəlb edə bilmişdir.

Siz Allah evinin möhtərəm ziyarətçiləri bu millətin peyğamını daşıyırsınız, belə olduqda isə, çox ağır bir vəzifə daşıyaraq, həssas bir mövqedə qərar tutmusunuz. İnşəallah gözləndiyi kimi gözəl rəftar, islami və inqilabi əxlaqınızla hamının nəzərini özünüzə cəlb edərək, İslam inqilabını olduğu kimi dünya xalqlarına tanıtdıraraq, qardaşcasına və mehribanlıqla onların diqqətini İranın böyük inqilabına cəlb edin.

Həmçinin əməli şəkildə qərəzli təbliğatçıların iyrənc təbliğlərini puça çıxarın ki, belə olduqda həcciniz qəbul olacaq və əcriniz çoxalacaqdır.
Səhifeyi – nur, 19- cu cild, 45- ci səhifə, 29/8/1984.

## İSLAMI BAŞQA YERLƏRƏ DƏ ÇATDIRIN.

Ey xalqın bütün qrupları, bir- birinizlə birgə olun, əgər bir olsanız, Allah sizə yardım edəcəkdir. Allahın yardımı budur ki, Allaha xatir birləşin , birlikdə İslamı gücləndirin və İslamı başqa yerlərə də çatdırın. Bu Allahın yardımıdır və o, vədə vermişdir ki, əgər siz yardım etsəniz, mən də sizə yardım edərəm.
Səhifeyi – nur, 20- ci cild, 128- ci səhifə, 9/6/1986.

# DÜNYADA İSLAM ƏQİDƏLƏRİNİ HƏYATA KEÇİRTMƏK.

İslam alimlərinin, tədqiqatçılarının və mütəxəssislərinin öhdəsindədir ki, bütün İslam dünyasına hakim olan qeyri – səhih iqtisadi proqramların yerinə elə yeni proqramlar hazırlasınlar və irəli sürsünlər ki, bütün ayaqıyalın və məhrum təbəqələrin mənafeyi nəzərə alınsın. Onları bu yaşayışdan xilas etsin. Əlbəttə belə məqsədləri, xüsusilə də İslamın iqtisadi proqramlarını həyata keçirmək, qərbin xəstə iqtisadiyyatının müqabilində dayanmaq, İslamın hərtərəfli hakimiyyəti olmadan mümkün deyildir.
Səhifeyi - nur, 20- ci cild, 128- ci səhifə, 28/7/1987.

# ALTINCI FƏSİL.

# İSLAM İNQİLABININ DOSTLARI VƏ ONU QƏBUL EDƏNLƏR.

## SÖZ BİRLİYİ MÜSƏLMAN HƏRƏKATLARININ QƏLƏBƏSİNİN ZAMİNİDİR.

Məyus deyilik, müsəlmanlar tam qüdrətlə irəli getməlidirlər.

Bu gün bütün hegemon qüdrətlər məhv olmaq üzrədirlər. Daha 10 il bundan qabaqkı kimi deyil. Bu gün hər yer, hətta Amerika, qara dərili müsəlmənların qorxusundan 8 şəhərdə fövqəladə hərbi vəziyyət elan etmişdir.

Bütün bəşəriyyat bu hərəkata qoşulmaqdadır. İndi İraqda hərəkat yaranmışdır, Pakistan, Hindistan və başqa yerlərdə də hərəkat vardır, müsəlmanlar özlərinə gəlməlidirlər. Hegemon qüdrətlərin nə olduğunu fikirləşməsinlər.

Xeyr, işdə belə sözlər yoxdur.

Özlərinə gələrək bir yerə toplansınlar və vəhdət yaratsınlar ki , inşəallah qalib gələrlər və inşəallah qalib də gələcəklər.

Ümidvarıq ki, müsəlmanlar arasında yayılmış inqilablar və hərəkatlar hər yeri bürüyəcək, bütün

qələbələrin mənşəyi olan söz birliyi və Allaha arxalanmaqla irəli gedəcəyik.

Bütün müsəlman ölkələri də söz birliyinə malik olmalı və İslam bayrağı altında həyat sürməlidirlər.

Allah təala Livanı qorusun və İslam uğrunda vuruşan Livan müsəlmanlarını qalib etsin, inşəallah – təala.

Səhifeyi – nur, 6- cı cild, 221- ci səhifə.20/5/1975.

## İSLAM DÖVLƏTİNİN BAŞQA MİLLƏTLƏRƏ SİRAYƏT ETMƏSİ.

İnşəallah, bəlkə bu hərəkat qalib gəldi və inşəallah, əgər İslam. dövləti şəxsi istəklərimiz ilə deyil, İslamın buyurduğu kimi qurularsa, bu xalqı və başqa xalqları səadətə doğru yönəltməlidir.

Səhifeyi – nur, 8- ci cild. 279- cu səhifə. 3/7/1979

## BU QƏLƏBƏ BAŞQA MÜSƏLMAN ÖLKƏLƏRİNƏ DƏ KEÇİR.

Siz bu iman, inqilab və inqilabçı ruhla, inşəallah qalib gələcəksiniz. Qələbəni sona çatdıracaqsınız. Bu, inşəallah, sizin ölkədən başqa ölkələrə, o cümlədən müsəlman ölkələrinə də keçəcəkdir.

Səhifeyi – nur, 8- ci cild. 173- cü səhifə, 19/7/1979.




Müsəlman Livan ölkəsində Amerika əleyhinə keçirilmiş mitinqdən bir səhnə.

## MƏZLUMLARIN ZORAKILARA QALİB GƏLƏCƏYİNƏ ÜMİDVARAM.

Siz, əlhəmdulillah, müvəffəq olduğunuz və İİR - sının adını dünyanın hər yerində yaydığınız , bütün dünya ölkələrinin diqqəti sizə yönəlmişdir. Bu hərəkat və inqilabın İmam Zamanın (ə) zühurunadək davam edəcəyinə, bu inqilabın bütün dünyaya yayılacağına ümid edirəm.

Siz İslamın düşmənləri üzərində qalib gəldiyiniz kimi, məzlumlar da zorakı dövlətlərə qalib gələcəklər.

